

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

"Azərbaycan beynəlxalq tədbirlərin uğurlu təşkilatçısı kimi tanınır"



11


SƏS

№ 074 (6999)

30 aprel 2024-cü il.

Qiyməti 60 qəpik


# Azərbaycan və Almaniya üçün ÜMUMİ MARAQLAR



4

# Sərhəddən sovrulanlar...



8

## Ermənilərlə xaricdəki azərbaycanlı mühacirlər birgə "dostluq" aksiyası keçirdi



11

## Terrorların günahsız qurbanları



7

## Dəyişək inkişaf edək?



6

## Kənddən gəldik şəhərə: bəs sonra?



6

## XƏBƏRDARLIQ: elektron siqaretlər bu dəhşətli xəstəliyi yaradır!



16

# Azərbaycan - Çin siyasi əlaqələri yüksək səviyyədədir





*Prezident İlham Əliyev: "Bir kəmər, bir yol" layihəsi ölkəmiz tərəfindən tam dəstəklənir"*

***Azərbaycanın dövlətlərarası münasibətləri yeni mərhələyə yüksəlib. Azərbaycan ilə dünyanın bir çox ölkələri arasında imzalanan sənədlər, ölkələr arasında münasibətlərin daha da genişləndirilməsi istiqamətində atılan addımlar siyasi, iqtisadi və mədəni sahədə əlaqələrin dərinləşməsi üçün yeni imkanlar açıb. Azərbaycanın iştirakçısı olduğu görüşlər, təşəbbüsləri, beynəlxalq layihələri ölkəmizin nüfuzunun artdığının və etimadının yüksəldiyinin daha bir göstəricisidir.***

Müasir dövrümüzdə böyük tərəqqi yolu keçən və Zəfər qazanan Azərbaycan dinamik inkişaf edən və bütün dünyada hörmət olunan ölkəyə çevrilib. Azərbaycanda bütün sahələrin inkişafı ilə yanaşı, beynəlxalq münasibətlər, diplomatik əlaqələr uğurla inkişaf edir. Bu gün Azərbaycanın bir çox dünya ölkələri ilə yanşı, Çinlə də əlaqələri uğurlu inkişaf yolundadır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 29-da Çin Xalq Respublikasının Xarici ölkələrlə dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri Yan Vanmini qəbul etməsi əlaqələrimizin dostluq və qarşılıqlı əməkdaşlı müstəvisində inkişafını bir daha təsdiqləyir. Azərbaycan Prezidenti Azərbaycan-Çin siyasi əlaqələrinin yüksək səviyyədə olduğunu vurğulayaraq ikitərəfli münasibətlərdə son vaxtlar böyük canlanmanın baş verdiyini qeyd edib. Nəqliyyat sahəsində çox fəal birgə işlərin aparıldığını deyən Prezident İlham Əliyev bu baxımdan Transxəzər nəqliyyat dəhlizinin Orta Dəhlizin bir hissəsi olduğunu vurğulayıb. Dövlətimizin başçısı sərmayə qoyuluşu nöqteyi-nəzərindən yaxşı irəliləyişin olduğunu diqqətə çəkib. Belə ki, Çin şirkətləri Azərbaycana daha böyük həcmdə sərmayə qoyur. Dövlətimizin başçısı, eyni zamanda, COP29-un ölkəmizdə keçirilməsi ilə əlaqədar Azərbaycan-Çin məsləhətləşmələrinin aparıldığını vurğulayıb. Prezident İlham Əliyev humanitar sahədə də gündəliyin kifayət qədər geniş olduğunu bildirib və Yan Vanminin ölkəmizə səfərinin əməkdaşlığımızın genişlənməsinə töhfə verəcəyinə əminliyini ifadə edib.

### İKİTƏRƏFLİ ƏLAQƏLƏRİ GENİŞLƏNDİRMƏK ÜÇÜN ƏLVERİŞLİ İMKANLAR

Yan Vanmin Ulu Öndər Heydər Əliyevin və bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın böyük inkişaf yolu keçdiyini, ölkədə siyasi sabitliyin bərqərar olunduğunu, iqtisadi yüksəlişin əldə edildiyini, əhalinin rifah halının yüksəldiyini və respublikamızın beynəlxalq aləmdə layiqli yerini tutduğunu vurğulayıb. O qeyd edib ki, bütün bunlar Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində mümkün olub.

Dünyanın ən böyük dövlətlərindən olan Çinlə Azərbaycan arasında diplomatik əlaqələr 1992-ci ilin aprel ayının 2-də qurulmuşdur. Azərbaycan Respublikası yarandıqdan sonra onun müstəqilliyini tanıyan ilk ölkələrdən biri də Çin Xalq Respublikası olub. Milli Məclisin qərarı ilə 1993-cü il 3 sentyabrda Azərbaycan Respublikasının Çin Xalq Respublikasında səfirliyinin açılmasını qərarlaşdırıb.

Müstəqilliyini yenicə bərpa etmiş Azərbaycan Respublikasının dünya dövlətləri, xüsusilə Çin Xalq Respublikası kimi qüdrətli ölkə tərəfindən tanınması mühüm əhəmiyyət kəsb edir. Bu əlaqələrin inkişaf və möhkəmlənməsində Ulu Öndər Heydər Əliyevin rolu əvəzsizdir. Belə ki, 1994-cü il 7-10 mart tarixində Ulu Öndər Heydər Əliyev Çin Xalq Respublikasında rəsmi səfərdə olmuşdur. Prezident Çin Xalq Respublikasının Sədri Tszyan Tszemin, Baş naziri Li Pen ilə rəsmi görüşlər keçirib. Səfər zamanı iki dövlət arasında səkkiz müqavilə imzalanmışdır. Çin Azərbaycanla münasibətlərin inkişaf etdirilməsinə böyük əhəmiyyət vermiş və bütün sahələrdə dostcasına əməkdaşlığın daha da genişləndirilməsi üçün addımlar atılmışdır. Pekinlə Bakı arasında diplomatik münasibətlər yaradılması ikitərəfli əlaqələri genişləndirmək üçün əlverişli imkan açmışdır. Bu əlaqələr sabit və sağlam əsasda inkişaf edir. Ulu Öndərin ölkələrimiz arasında münasibətlərin inkişafında roluna bir daha toxunan qonaq bildirib: "Biz Çin-Azərbaycan münasibətləri haqqında danışarkən Sizin atanız Heydər Əliyevin töhfələrini unuda bilmərik. Çin xalqı çox yaxşı xatırlayır: Heydər Əliyev Prezident seçildikdən çox qısa müddət sonra - 1994-cü ildə Çinə səfər etdi və Çinin ovaxtkı rəhbərliyi ilə birlikdə xalqlarımız arasında əlaqələrin möhkəm təməlini qoydu. Heydər Əliyev o zaman xüsusilə Çin kəndinə gedərək sadə insanlarla görüşdü. Bu, Çin xalqının yaddaşında əbədi qalacaq. Siz bu gün atanızın siyasətini davam etdirərək Çinə altı dəfə səfər etmisiniz. Çin xalqı Sizə böyük hörmətlə yanaşır".

### "ULU ÖNDƏR HEYDƏR ƏLİYEV AZƏRBAYCAN-ÇİN MÜNASİBƏTLƏRİNİN İNKİŞAFINA, PARLAQ GƏLƏCƏYİNƏ ÇOX İNANIRDI"

Dövlətimizin başçısı vurğulayıb ki, Ulu Öndər Heydər Əliyev Azərbaycan-Çin münasibətlərinin inkişafına, parlaq gələcəyinə çox inanırdı və buna nail olmaq üçün böyük səylər göstərirdi. Azərbaycan Prezidenti qeyd edib ki, 1994-cü ildə Ümummilli Liderin Çinə ilk rəsmi səfəri əlaqələrimizin təməlini qoyub. Öz növbəsində Ulu Öndərin siyasətini bütün sahələrdə davam etdirən bir şəxs kimi Azərbaycan-Çin əlaqələrinin inkişafına xüsusi diqqət yetirdiyini deyən dövlətimizin başçısı vurğulayıb ki, birgə səylər nəticəsində müəyyən olunmuş möhkəm əməkdaşlıq çərçivəsində siyasi, iqtisadi və digər sahələrdə əlaqələrimiz bundan sonra da uğurla inkişaf edəcək.Ötən müddət ərzində dövlətlərimiz arasında əlaqələr qarşılıqlı faydalı tərəfdaşlıq və dostluq prinsipləri əsasında uğurla inkişaf etdirilib. Bu əlaqələr xalqların mənafeyinə uyğun olaraq inkişaf edir. İkitərəfli əlaqələrin sürətlə inkişaf edərək hazırkı səviyyəyə çatmasında yüksək səviyyəli qarşılıqlı səfərlər və imzalanan sənədlər mühüm rol oynayıb. Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin Çinə rəsmi səfərləri, əldə olunan razılaşmalar, həyata keçirilən birgə layihələr ikitərəfli əlaqələri daha da dərinləşdirib. 2005 və 2008-i illərdə Prezident İlham Əliyev ÇXR-ə rəsmi səfəri, 2004-cü ildə ÇXR-in xarici işlər naziri Li Çjaosinq Azərbaycana rəsmi səfəri, daha sonra 2010-cu il 16-17 may – ÇXR-in xarici işlər naziri Yanq Cieçi Azərbaycana səfəri Çin-Azərbaycan əlaqələrinin sürətli inkişaf mərhələsinin davamı idi. 2015-ci ilin dekabrında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yenidən Çinə dövlət səfəri çərçivəsində Çin Xalq Respublikasının sədri Si Cinpin ilə birgə İpək Yolu iqtisadi kəmərinin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumunun imzalanması ölkələr arasında münasibətləri daha da gücləndirmiş oldu.

### "BİR KƏMƏR, BİR YOL" STRATEGİYASININ HƏYATA KEÇİRİLMƏSİNDƏ AZƏRBAYCAN LOGİSTİKA MƏRKƏZİ, QOVŞAQ VƏ KÖRPÜ ROLUNU OYNAYIR

Çin və Azərbaycan arasında əlaqələrin bütün sahələrdə daha da genişlənməsi üçün böyük potensial mövcuddur. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan özünəməxsus inkişaf yolu ilə irəliləyir. İki ölkə arasında nəqliyyat, kənd təsərrüfatı, turizm, energetika, informasiya və kommunikasiya texnologiyaları istiqamətlərində əməkdaşlığın artan dinamikası diqqətdədir.

Azərbaycan Çindən Avropaya və əks istiqamətdə yüklərin daşınmasında əhəmiyyətli rol oynayır və respublikamızdan keçən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu Çinin "Bir kəmər, bir yol" təşəbbüsü ilə uzlaşır və Çin tərəfi konteyner daşımaları baxımından bu dəhlizə böyük maraq göstərir. Bu gün Azərbaycan və Çin arasında olduqca yaxşı iqtisadi əməkdaşlıq mövcuddur. Dövlətimizin başçısı qeyd etdi ki, Si Cinpinin təşəbbüsü olan "Bir kəmər, bir yol" layihəsi ölkəmiz tərəfindən tam dəstəklənir və biz Azərbaycan ərazisində bütün nəqliyyat infrastrukturunu yaradaraq qonşu ölkələrlə də təmaslar əsnasında bu layihənin həyata keçirilməsi istiqamətində səylərimizi əsirgəmirik.

### ƏMƏKDAŞLIQ PERSPEKTİVLƏRİNİN TƏSDİQİ

Çinlə Azərbaycan arasında diplomatik əlaqələrin yaradılması iki ölkənin tarixində yeni mühüm səhifə açıb. Ölkələrimiz arasında humanitar, mədəniyyət və elm-təhsil sahələrində də sıx əməkdaşlıq müşahidə olunmaqdadır. Mütəmadi olaraq, Çində və Azərbaycanda qarşılıqlı mədəniyyət günlərinin keçirilməsi, tələbə mübadiləsi proqramları buna bariz nümunədir. 2011-ci ilin mayında Çində Azərbaycan mədəniyyəti günləri keçirilib, 10-14 dekabr 2012-ci il tarixində isə Azərbaycanda Çin Xalq Respublikasının mədəniyyət günləri keçirilib. 2019-cu ilin noyabrında Pekində Heydər Əliyev Fondu və ÇXR-dəki Azərbaycan Respublikası səfirliyinin dəstəyi ilə "Azərbaycan musiqisi axşamları" adlı konsert proqramı baş tutub. Ölkəmizdə Çin mədəniyyətinə və Çin dilinə maraq artmaqdadır. Bütün istiqamətlərdə iki ölkə arasında əməkdaşlığın böyük potensialı var.Göründüyü kimi, Çin və Azərbaycan respublikaları arasında möhkəm diplomatik və mədəni əlaqələr mövcuddur. Belə ki, dünyanın bütün ölkələri ilə qarşılıqlı surətdə faydalı əməkdaşlıq yaratmaq prinsiplərini rəhbər tutan Azərbaycan Çinlə də bütün istiqamətlərdə sıx əlaqələrə malikdir.Xoş sözlərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı Çin Xalq Respublikasının Sədri ilə dəfələrlə keçirdikləri görüşlərin ikitərəfli münasibətlərin inkişafına güclü təkan verdiyini vurğulayıb. Si Cinpinlə son dəfə keçirdiyi görüşü də məmnunluqla xatırlayan Prezident İlham Əliyev bu görüş zamanı bir çox önəmli məsələlərin müzakirə edildiyini və əməkdaşlığın perspektivlərinin təsdiq olunduğunu bildirdi.Diplomatik münasibətlərimizin qurulmasından ötən dövr ərzində əlaqələrimiz sabit şəkildə inkişaf edib və bu davamlıdır. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin Azərbaycana qısa müddətdə inanılmaz nailiyyətlər qazandıran siyasəti dünya ölkələrində, eləcə də Çində böyük maraqla izlənilir.

***Zümrüd BAYRAMOVA***

# "İkitərəfli münasibətlərimiz müsbət istiqamətdə inkişaf edir"



## Prezident İlham Əliyev Malayziyanın Parlament Senatının prezidentini qəbul edib

***Azərbaycan Prezidenti İlham Əliyev dünən Malayziyanın Parlament Senatının prezidenti Datuk Mutanq Taqalı qəbul edib. Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin müsbət istiqamətdə inkişaf etdiyini bildirərək iqtisadi sahədə də əlaqələrimizin fəallaşacağına ümidvar olduğunu vurğuladı.***

Prezident İlham Əliyev Malayziyanın beynəlxalq aləmdə Azərbaycana göstərdiyi dəstəyə toxunaraq həm torpaqlarımızın işğalı zamanı, həm də tarixi nailiyyətimiz olan ərazilərimizin işğaldan azad olunmasından, suverenliyimizin və ərazi bütövlüyümüzün bərpasından sonra Malayziyanın ölkəmizə daim dəstək göstərməsini yüksək qiymətləndirdi. Azərbaycan Prezidenti torpaqlarımızın ermənilər tərəfindən işğalı dövründə həmin ərazilərimizdə məhv edilmiş dini-tarixi abidələrimiz barədə məlumat verdi.

Datuk Mutanq Taqalın ölkəmizə səfərinin münasibətlərimizin genişlənməsi, o cümlədən parlamentlərarası əməkdaşlığın inkişafı baxımından önəmini qeyd edən dövlətimizin başçısı bu səfərin ələqələrimizin perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını bildirdi. Datuk Mutanq Taqal, ilk növbədə, Malayziyanın Kralı Əlahəzrət Sultan İbrahimin salamlarını və yenidən prezident seçilməsi münasibətilə bir daha təbriklərini dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara və təbriklərə görə minnətdarlığını bildirdi, onun da salamlarını Malayziyanın Kralına çatdırmağı xahiş etdi.

Görüşdə Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə ölkələrimizin bu hərəkatın gücləndirilməsi istiqamətində fəal birgə əməkdaşlıq həyata keçirdikləri, eyni zamanda, İslam Əməkdaşlıq Təşkilatında da Azərbaycan ilə Malayziyanın yaxından qarşılıqlı fəaliyyət göstərdikləri məmnunluqla qeyd olundu.

Ölkələrimizin bir-birindən uzaqda yerləşməsinə baxmayaraq, Azərbaycan ilə Malayziya arasında mövcud olan güclü siyasi əlaqələrin investisiya, ticarət sahələrində və biznes dairələri arasında əməkdaşlığın fəallaşması üçün yaxşı imkan yaratdığı bildirildi. Görüşdə COP29 çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olundu.

## Birinci vitse-prezident Mehriban Əliyeva şahmatçı Ülviyyə Fətəliyevanı Avropa çempionu olması münasibətilə təbrik edib



***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Azərbaycanın qadın şahmatçısı Ülviyyə Fətəliyevanı Yunanıstanın Rodos adasında təşkil edilən Avropa çempionatında qızıl medal qazanması münasibətilə təbrik edib.***

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezidentin bununla bağlı paylaşımında deyilir: "Əziz Ülviyyə! Parlaq qələbə münasibətilə səni ürəkdən təbrik edirəm! Əməyinə və iradənə görə çox sağ ol! Səninlə fəxr edirəm! Azərbaycana Qələbələr yaraşır!"

## Fuat Oktay: "Bakıda keçirilən toplantının əməkdaşlığımıza töhfə verəcəyinə inanırıq"




***İnanırıq ki, Bakıda keçirilən toplantımız birgə əməkdaşlığımıza töhfə verəcək. Bu fikri Türkiyə Böyük Millət Məclisinin (TBMM) Xarici əlaqələr komitəsinin sədri Fuat Oktay aprelin 25-də Bakıda keçirilən Türk dövlətləri parlamentlərinin Xarici əlaqələr komitələri sədrlərinin birinci iclasından sonra keçirilən mətbuat konfransında səsləndirib.***

"Qarabağ Zəfərindən sonra Qazax rayonunun 4 kəndinin geri qaytarılması bizi çox sevindirdi. Şimali Kiprin müşahidəçi qismində TDT-yə üzv qəbul olunması birliyimizi artırır", - deyə Fuat Oktay vurğulayıb.

Türkiyə parlamentarisi qeyd edib ki, xalqlarımız və dövlətlərimiz arasındakı əlaqələrin parlament səviyyəsində də genişləndirilməsi çox önəmlidir.

Fuat Oktayın sözlərinə görə, türk dövlətlərinin ortaya qoyduğu vizyon 2040-cı ilə qədər mövcud imkanlar və potensial baxımdan iş birliyinin möhkəmləndirilməsində önəmli rol oynayır.

## Türk ekspert: "Erməni diasporu və rəsmi Parisin gərginliyi artırmaq cəhdləri faktlar qarşısında iflasa uğrayır"

***İkinci Qarabağ müharibəsindən sonra Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycanın işğal olunmuş torpaqlarının qaytarılması prosesi ilə bağlı əsaslı və müsbət bəyanatlar verdi. Bir neçə gün əvvəl buna etiraz edənlərin olmasına baxmayaraq, dörd kəndin Azərbaycana qaytarılması prosesi də uğurla reallaşdı. Erməni siyasətçiləri arasında müəyyən etirazlar var, bəli, lakin rəsmi İrəvan Azərbaycanla bu qarşıdurmanın daha çox özünün zərərinə işlədiyini başa düşüb ki, işğal siyasətinə son qoymağa qərar verib. Lakin bu prosesdə gərginliyin artması ilə qidalanan Fransa kimi ölkələr Ermənistanın bu münasibətinə qarşı çıxır. Eynilə ABŞ və digər ölkələrdəki erməni diaspor nümayəndələrinin də gərginliyin davam etdirilməsinin tərəfdarı olduqlarını görə bilərik.***



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyənin "Optimar Araşdırma" şirkətinin rəhbəri, siyasi ekspert Hilmi Daşdemir səsləndirib.

Qondarma "erməni soyqırımı" məsələsinə toxunan müsahib Ermənistan parlamentinin müdafiə və təhlükəsizlik məsələləri üzrə komissiyasının sədri Andranik Köçəryanın buna dair sözlərini xatırladaraq deyib: "Köçəryan hər il "soyqırımı" ilə bağlı mərasimlərin keçirildiyini, lakin buna dair açılan muzeydəki şəkillər və sənədlərin belə inandırıcılıq səviyyəsinin aşağı olduğunu bildirdi. O, hətta 1915-ci il hadisələrində ölənlərin sayı ilə bağlı müəmmaların olduğunu da dedi. Bu, bir növ həqiqəti qəbul etməkdir. Bu sözlərdən də göründüyü kimi, erməni diasporu və rəsmi Parisin gərginliyi artırmaq cəhdləri faktlar qarşısında iflasa uğrayır. Bütün bunlar başlı-başına olan irəliləyişlər deyil. Bu, İlham Əliyevin liderliyi ilə Azərbaycan və Türkiyə prezidentlərinin müəyyən ahənglə hərəkət etməsinin qələbəsidir. Bəli, problemlər hələ də tam aradan qalxmayıb. Hələ gedəcəyimiz uzun yol var. Lakin hazırda burada ən mühüm amil Azərbaycan və Türkiyənin erməni məsələsi ilə bağlı həqiqətləri həm Qərb, həm də bütün dünya ictimaiyyətinə daha da geniş şəkildə çatdırmasıdır. Bu mövzu və ümumiyyətlə, erməni həqiqətlərinə dair sənədlər, məqalələr və sənədli filmlərin müxtəlif dillərdə hazırlanıb daha çox insana çatdırılması xüsusilə hazırkı vəziyyətdə olduqca vacibdir".

# Azərbaycan və Almaniya üçün ÜMUMİ MARAQLAR





***Qlobal iqlim dəyişikliyi dünyanın heç bir ölkəsi üçün nə təsirsiz sayıla, nə də təsirsiz ötüşə bilməz. Çünki məhz qlobal iqlim dəyişikliyinin bu və ya digər dərəcədə dünya ölkələrinin əksəriyyətinə mənfi təsir etdiyi göz önündədir və bunu təkzib etmək mümkün deyil. İndi ən vacib məqam mənfi təsirlərin minimuma endirilməsi məsələsidir və təsadüfi deyil ki, hazırda BMT-nin koordinasiya etdiyi səylər də bu risklərin nəticələrinin minimuma endirilməsinə yönəlib. Deməli, məhz qlobal iqlim dəyişikliyinin mənfi təsirlərinin minimuma endirilməsi bütün dünya ölkələri üçün prioritet məsələ hesab olunur, hansıki bu, elə Azərbaycan və Almaniya üçün də ümumi maraqlardan biridir.***

### Ölkəmizin ekoloji gündəmlə bağlı mövqeyi bəllidir və Azərbaycanın irəli sürdüyü təkliflər bütün dünyanın diqqət mərkəzindədir

Bütün dünya ictimaiyyəti üçün sirr deyil ki, bu ilin, 2024-cü ilin noyabr ayında Bakıda BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası, COP29 öz işinə başlayacaq. Azərbaycan həmin tədbirə ev sahibliyi edəcək və bunun da təsadüfi olmadığını hər kəs çox yaxşı bilir. Ölkəmizin ekoloji gündəmlə bağlı mövqeyi də əlbəttə ki, bütün dünyaya bəllidir. Bununla belə, Almaniyada səfərdə olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, həmin ölkədə təşkil olunmuş 15-ci Peterberq İqlim Dialoqunun Yüksək Səviyyəli Seqmentində iştirakı zamanı ölkəmizin ekoloji gündəmlə bağlı ardıcıl mövqeyini səsləndirib. Sözsüz ki, bu mövqe maraqla qarşılanıb və maraqla qarşılanması da səbəbsiz deyil. Çünki ekoloji gündəmlə bağlı Azərbaycanın irəli sürdüyü təkliflər, ölkəmizdə "yaşıl" enerjinin inkişafının sürətlənməsi bütün dünyanın diqqət mərkəzindədir.

Diqqətə çatdıraq ki, Petersberq İqlim Dialoqu Birləşmiş Millətlər Təşkilatının cari iqlim gündəmini müzakirə etmək üçün dünyanın illik toplantısıdır. Bir neçə ölkənin nümayəndələri bununla bağlı ildə bir dəfə məhz Avropada, Berlində toplaşıb müzakirələr aparırlar. Əlbəttə ki, məqsəd də bəllidir. Onu da xatırladaq ki, Petersberq İqlim Dialoqu məhz cari ilin noyabr ayında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə növbəti COP29 Konfransına hazırlıq məqsədi ilə keçirilib. Hər kəs bilir ki, iqlim dəyişikliyi ilə bağlı fəaliyyətlər üzrə növbəti dialoq Azərbaycanda olacaq və deməli, məqsəd artıq aydındır.

### Beynəlxalq ictimaiyyət Azərbaycana etimad göstərir, yaşıl enerji sahəsində gördüyümüz işlər tanınır və yüksək qiymətləndirilir

"Biz yekdilliklə COP29-a ev sahibliyi edən ölkə kimi seçilməkdən şərəf duyuruq, bu, beynəlxalq ictimaiyyətin Azərbaycana etimadının, o cümlədən yaşıl enerji sahəsində gördüyümüz işlərin tanınmasının təzahürüdür", deyə cənab Prezident İlham Əliyev bəyan etməsi heç də təsadüfi və səbəbsiz deyil. Ölkə rəhbərimiz tərəfindən məhz bir Avropa ölkəsində, Almaniyada xatırladılır ki, beynəlxalq ictimaiyyət Azərbaycana etimad göstərir. Eyni zamanda ehyam da vurulur ki, yaşıl enerji sahəsində gördüyümüz işlər tanınır və yüksək qiymətləndirilir. Xüsusilə nəzərə çatdırmaq yerinə düşərdi ki, 15-ci Petersberq İqlim Dialoquna dəvət olunan və tədbirdə iştirak edən Almaniya kansleri Olaf Şolz tərəfindən də fikirlər səsləndirilib. "Biz xarici tərəfdaşlarımızla birlikdə "yaşıl" enerjiyə keçidin bir hissəsi kimi irimiqyaslı layihələrə start verdik", deyən Almaniya kansleri üçün Azərbaycan tərəfinin nə dərəcədə maraqlı olduğu dərhal bəlli olur.

### Bərpa olunan enerji mənbələri sektorunun inkişafını Azərbaycan son illərdə sürətləndirib

Xatırladaq ki, mədən ehtiyatlarının hasilatının artırılmasına paralel olaraq, Azərbaycan son illərdə bərpa olunan enerji mənbələri sektorunun inkişafını sürətləndirib, həmçinin istixana qazı emissiyalarını 2030-cu ilə qədər 35%, 2050-ci ilə qədər isə 40% azaltmağı öhdəsinə götürübdür. Ölkəmiz metan emissiyalarının könüllü şəkildə azaldılması ilə birlikdə 2030-cu ilə qədər ölkənin quraşdırılmış enerji tutumunda bərpa olunan enerji mənbələrinin payını 30%-ə çatdırmağı qarşısına məqsəd qoyub. Bu məqsədlər üçün Qarabağ bölgəsində "yaşıl" enerji zonası formalaşdırılır, bərpa olunan enerji mənbələri elementləri olan "ağıllı" şəhər və kəndlər salınır, onlarla kiçik su elektrik stansiyası yenidən qurularaq tikilir, istifadəyə verilir. Yaxın gələcəkdə ölkəmizin ərazidində yeni günəş və külək stansiyaları istifadəyə veriləcəyi artıq nəzərdə tutulub. Oxşar layihələr Abşeron yarımadasında və Naxçıvan Muxtar Respublikasında da həyata keçirilir və Qara dənizin dibi ilə 1000 MVt gücündə sualtı elektrik kabelinin çəkilməsini nəzərdə tutan "Qara Dəniz Enerjisi" layihəsinə də hazırlıq işlərinə başlanılıb. Növbəti addım isə Xəzər dənizinin külək enerjisi potensialının inkişafı üçün xarici investisiyaların cəlb edilməsi, "yaşıl" hidrogenin hasil edilməsi hesab olunur.



"Yaşıl enerji sahəsində layihələrimiz xarici investorlar tərəfindən maliyyələşdirilir və biz yalnız müvafiq infrastrukturu təmin edirik və bu investisiyalar üçün ən əlverişli mühit yaradırıq", deyə bəyan edən cənab Prezident İlham Əliyev həmçinin qeyd edib ki, qaz və neft kimi təbii ehtiyatlarla zəngin ölkələrin iqlim dəyişikliyi ilə mübarizədə aparıcı rol oynamalıdır, hansıki bu müxtəlif platformalar iqlim məqsədlərinə birlikdə nail olmağa kömək edərək həmrəylik ruhunu yaratmağa kömək edir. Diqqətə çatdıraq ki, Azərbaycanın Aİ-nin doqquz üzvü ilə strateji tərəfdaşlıq bəyannaməsi imzaladığını qeyd edən dövlət başçımız 2022-ci ildə Aİ ilə enerji sektorunda tərəfdaşlıq sazişinin imzalandığını və 2022-ci ildə Azərbaycan qazının Avropaya nəqlinin artırılmasını da xatırladıb. Sözsüz ki, bu xatırlatma bütövlükdə Avropa üçün tamamilə yerinə düşən hesab olunur. İndi bunu elə başda Almaniya kansleri olmaqla, bütün almanlar özləri də yaxşı başa düşürlər.

### "Son vaxtlar Almaniya-Azərbaycan münasibətləri sürətli inkişaf dövrünü yaşayır və ikitərəfli gündəm kifayət qədər genişdir"

"Mən şadam ki, bu il COP29 Azərbaycanda keçiriləcək və siz bu tədbirdə Almaniyanın dəstəyinə əmin ola bilərsiniz. Azərbaycan mühüm iqlim öhdəliyi götürüb və bu baxımdan Birləşmiş Ərəb Əmirliyi, Azərbaycan və Braziliyanın COP sədrləri ilə birlikdə Dubaydan, Berlindən Bakıya aparan körpünün üzərində işləyəcəyik", deyə Almaniyanın xarici işlər naziri Annalena Barbok görüş zamanı bildirib. Bir gün əvvəl də o Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri, COP29-un prezidenti Muxtar Babayevlə brifinq keçirib. Göründüyü kimi, Azərbaycanın Avropa İttifaqının enerji təhlükəsizliyinin təmin edilməsi istiqamətində səylərini dəstəkləyən, o cümlədən BMT-nin iqlim gündəliyində ölkəmizin prinsipial mövqeyini alqışlayan Almaniya hökuməti iqtisadiyyatın digər sahələrində də əməkdaşlığı tam genişləndirməyə hazırdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin kansler Olaf Şolzla birgə mətbuat konfransı zamanı BMT Konfransının 29-cu sessiyasına hazırlıqla bağlı Almaniyaya Azərbaycana göstərdiyi dəstəyə görə minnətdarlığını bildirməsi heç də təsadüfi deyil. Bu, Almaniyanın ölkəmizə qarşı son zamanlar münasibətinin müsbət istiqamətdə dəyişməsinin təsahürüdür. "Son vaxtlar Almaniya-Azərbaycan münasibətləri sürətli inkişaf dövrünü yaşayır və ikitərəfli gündəm kifayət qədər genişdir. Bu münasibətlərin inkişafı həm ölkələrimiz, həm də bütövlükdə Cənubi Qafqazda inkişaf və sabitlik baxımından böyük əhəmiyyət kəsb edir", deyən ölkə rəhbərimiz kansler Olaf Şolz ilə ötən ilin martında Berlində və iki ay əvvəl Münhendə keçirilən görüşləri də xatırladıb.

### Azərbaycan Almaniya ilə ticarət-iqtisadi və investisiya əməkdaşlığının inkişafına böyük əhəmiyyət verir

Avropa iqtisadiyyatının "lokomotivi" olan Almaniya ilə ticarət-iqtisadi və investisiya əməkdaşlığının inkişafına Azərbaycan böyük əhəmiyyət verir. Ümumiyyətlə, Azərbaycan-Almaniya biznes tərəfdaşlığı geniş müqavilə-hüquq bazasına əsaslanır. Nəzərə almaq lazımdır ki, iki dövlət arasında səksəndən artıq sənəd imzalanıb, ümumilikdə 200-ə yaxın alman şirkəti ölkəmizdə qeydiyyatdan keçib və onlardan 170-ə yaxını Azərbaycan-Almaniya Ticarət Palatasının üzvüdür. Almaniya şirkətləri sənaye, tikinti materiallarının istehsalı, kənd təsərrüfatı sektoru, elektrik enerjisi sənayesi, telekommunikasiya, bərpa olunan enerji layihələri və iqtisadiyyatın rəqəmsallaşdırılması, limanların, dəmir yolu və digər nəqliyyat infrastrukturlarının modernləşdirilməsi və digər sahələrdə müxtəlif podrat layihələrində fəal iştirak edirlər. Eyni zamanda onu da unutmaq lazım deyil ki, Almaniyanın da Cənubi Qafqaz ölkələri ilə ümumi ticarət dövriyyəsinin 70%-i məhz Azərbaycanın payına düşür. Qlobal böhranlara və tənəzzüllərə baxmayaraq, ticarət dinamik olaraq inkişaf edir və diqqətə çatdıraq ki, 2022-ci ildə qarşılıqlı ticarət dövriyyəsi 1,3 milyard dollar təşkil edib və bu rəqəm 2023-cü ildə 45,4 faiz artaraq 1,8 milyard dollara çatıb. Ələlxüsus, Cənub Qaz Dəhlizinin işə salınmasından sonra Almaniyanın Uniper SE qaz treyderi Cənubi Avropa regionunda Azərbaycan qazının ən böyük alıcısı kimi çıxış edir. Azərbaycan ixracatında əsas payın enerji xammalı olmasına baxmayaraq, son illər yerli biznes Almaniya bazarına şərab məhsulları, şirələr, təzə və konservləşdirilmiş meyvə-tərəvəz, fındıq tədarükünü artırır. Neft-kimya məhsullarının, əlvan və qara metallurgiya məhsullarının tədarükü qurulur, Orta Dəhliz üzrə nəqliyyat tranziti sahəsində turizm məhsulları və xidmətləri təşviq edilir. Biz sözlə, iki ölkə arasında əlaqələr və münasibətlər getdikcə yüksələn xətt üzrə inkişaf edir və görünən odur ki, Azərbaycan və Alamaniya üçün ümumi maraqlar mövcuddur və bu maraqlar bundan sonra əlaqələrimizi daha da yaxşılaşdıracaq.

***İnam Hacıyev***



# Yeni və çevik iqtisadi yanaşmalar

## *Prezident İlham Əliyev: "Biz neft və qazın satışından əldə edilən gəlirlərin əksər hissəsini sosial sahəyə yönəldirik"*

***Son dövrdə reallaşan kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat və ən əsası da xalq-iqtidar birliyi Azərbaycanın əsas inkişaf göstəriciləri sırasında olan amillərdir.Ölkə başçısının gördüyü işlər, həyata keçirdiyi bütün layihə və proqramlar, ilk öncə milli maraqları özündə əks etdirir.***

Azərbaycan dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən dövlətinə çevrilib. Azərbaycan Prezidentinin yürütdüyü siyasətin məqsədyönlüyü, ardıcıllığı hər bir vətəndaşda gələcəyə daha da böyük inam və əminlik yaradıb. Prezident İlham Əliyev dövrün tələbi kimi qarşıda duran vəzifələri düzgün müəyyənləşdirib, həyata keçirdiyi islahatlarla inkişaf mexanizminin daha da çevikliyinə, işləkliyinə nail olub. Azərbaycan dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən dövlətinə çevrilib.

Azərbaycanın uğurlu inkişafının təmin edilməsində və qarşıda duran bütün əsas vəzifələr uğurla icrasının təməlində düşünülmüş siyasət, həyata keçirilən islahatlar və dövlət proqramları dayanır. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının qəbulu və qarşıya qoyulan vəzifələrin uğurlu icrası nəticəsində abadlaşan bölgələrimiz, inkişaf edən ölkəmiz Azərbaycanın dinamik inkişafının göstəriciləridir.

Paytaxtla regionlar arasında inkişaf fərqini aradan qaldırmağa hesablanmış Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları bölgələrdə infrastrukturun yenilənməsi, rayonların simasının əhəmiyyətli dərəcədə müasirləşməsində mühüm rol oynayıb. Bölgələrdə istehsal müəssisələrinin dirçəlişi və yeni sənaye obyektlərinin yaradılması, yerli resurslardan istifadənin səmərəliliyinin artırılması, aqrar sektorun müxtəlif dəstək mexanizmləri və innovativ üsullarla inkişaf etdirilməsi, müasir infrastrukturun, yeni iş yerlərinin yaradılması dövlət proqramlarının reallaşdırılmasında əsas nailiyyətlər sırasında qeyd edilməlidir. Ölkəmizin istənilən bir sahəsində uğurları görmək mümkündür ki, bu da insanların firavanlığının təminində mühüm rola malikdir.

### ÖLKƏDƏ 60-DAN ÇOX YENİ ELEKTRİK STANSİYASI İSTİSMARA VERİLİB

Ümumilikdə 4 dövlət proqramı üzrə regionlara yatırılmış investisiyaların həcmi 104 milyard manat təşkil edir. 2022-ci ildə regionlar üzrə məhsul buraxılışının nominal həcmi 2003-cü ilə nisbətən 13,5 dəfə böyüyüb, əhalinin nominal gəlirləri isə 10,5 dəfə artıb. 2004-cü ildən bəri regionlarda 1,8 milyondan çox yeni iş yeri və 52 mindən artıq yeni müəssisə yaradılıb. Statistik rəqəmlərə əsasən. 2004-2022-ci illərdə ölkədə 60-dan çox yeni elektrik stansiyası istismara verilib. Elektrik enerjisinin 76%-i regionlarda istehsal edilir. Bu illər ərzində Azərbaycan elektrik enerjisini idxal edən ölkədən ixrac edən ölkəyə çevrilib. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirdiyi kimi, "İqtisadi göstəricilərimiz və sosial proqramlarımız gəlirlərin ədalətli şəkildə paylanmasını təmin etmək üçün neft və qaz vəsaitlərini yoxsulluq və işsizlik kimi məsələlərin həllinə yönəltdiyimizi aydın şəkildə göstərir. Enerji əməkdaşlığımıza başlayanda və neft satışından ilk gəlirləri əldə edəndə Azərbaycanda yoxsulluğun səviyyəsi 50 faizə yaxın idi. Yəni, hər iki adamdan biri yoxsul idi. Qaçqınlar arasında bu göstərici 75 faizi ötürdü. ,,,Hazırda biz həmin göstəricini 5 faizə qədər azaltdıq. Eyni vəziyyət işsizlikdə müşahidə olunur".

Regionlarda qazlaşdırmanın səviyyəsi 94%-i ötüb, fasiləsiz içməli su alan əhali üzrə göstərici 9%-dən 73%-ə çatıb. Bütün bu və ya digər göstəricilər və statistik rəqəmlər deməyə əsas verir ki. Azərbaycan böyük bir ikkişaf yolu keçərək nufuzunu yüksəltmələy nail olub. Bu göstəricilər insanların rahatlıq və firavanlığını yüksəldib.

### "ÖLKƏNİN İNKİŞAFINA TÖHFƏ VERMƏK ÜÇÜN GƏNC NƏSİLLƏR TƏLİMDƏN KEÇMƏLİDİR"

Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində, ölkə iqtisadiyyatının mühüm sahəsi olan qeyri-neft sektorunun inkişafında, eləcə də, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayan kənd təsərrüfatının dinamik və dayanıqlı inkişafının təmin edilməsi istiqamətində davamlı işlər görülür. Neft kapitalının insan kapitalına çevrilməsi strategiyasına uyğun olaraq, humanitar sahələrin inkişafı istiqamətində gərgin iş aparılıb. Təhsil sisteminin daha da təkmilləşdirilməsinə dair tədbirlər həyata keçirilib, dünyanın mötəbər universitetlərində minlərlə Azərbaycan gəncinin təhsil alması üzrə Dövlət Proqramı gerçəkləşdirilib, yeni universitetlər açılıb, təhsildə özəl sektor formalaşıb. "Peşə təhsilinə xüsusi diqqət yetiririk. Hazırda bütün ölkədə peşə təhsili mərkəzlərinin açılmasına dair xüsusi proqramımız var. Rayonların iqlim şəraiti və ya inkişaf istiqamətindən asılı olaraq məktəblər açırıq. Məsələn, biz turizm yerlərində turizm peşə məktəblərini açırıq. Digər yerlərdə, sənayeyə aid mərkəzlər açılır. Bu, müəyyən elementlərin toplusudur.

Lakin, əlbəttə ki, əsas məqsəd təhsilin səviyyəsini bu gün olduğu kimi yüksək səviyyədə saxlamaqdır. Bu gün mütləqdir ki, ölkənin inkişafına töhfə vermək üçün gənc nəsillər təlimdən keçməlidir. Yadımdadır, ilk dəfə gənclərin xaricə təhsil üçün göndərilməsi proqramına başlayanda müəyyən fikir var idi ki, biz onların geri qayıtması üçün təminat almalıyıq, çünki bu cür olmasa, biz çox vəsait xərcləyəcəyik və onlar oxuduqları yerdə qalacaqlar. Dedim, yox! Bildirdim ki, biz ölkəmizdə elə şərait yaratmalıyıq ki, onlar qayıtmağa üstünlük versinlər. Beləliklə, hazırda mən görürəm ki, Birləşmiş Ştatlarda, Britaniya və Avropanın digər ölkələrində təhsil almış tələbələrin əksəriyyəti geri qayıdır. Bu, onu göstərir ki, biz düzgün yoldayıq. Biz daha ürəkdən çalışmalıyıq ki, gənc azərbaycanlılar ölkəni tərk etməsin, çünki bu, postsovet məkanında bir çox ölkələrdə problemlərdən biridir... Düşünürəm ki, bizim vəziyyət daha yaxşıdır, çünki ölkədə əhali çox olanda, siz daha güclüsünüz. Lakin siz onları işlə, evlə, layiqli şəraitlə, səhiyyə ilə təmin etməlisiniz və biz bu işləri görürük. Biz neft və qazın satışından əldə edilən gəlirlərin əksər hissəsini sosial sahəyə yönəldirik". Yeni və çevik iqtisadi yanaşmalar, iqtisadiyyatın şaxələndirilməsi, əlverişli biznes mühitinin yaradılması, investisiya cəlbediciliyinin daha da artırılması, vergi və gömrük sistemində köklü dəyişikliklər, şəffaflığın artırılması kimi mühüm amillər Azərbaycanın dayanıqlı və inklüziv sosial-iqtisadi inkişafını təmin edib.

### AZAD EDİLMİŞ ƏRAZİLƏRİMİZİN BƏRPASI DÖVRÜ

Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, bizim ölkəmiz üçün yeni dövr başlayır: "Yeni quruculuq dövrü, inkişaf dövrü, azad edilmiş ərazilərimizin bərpası dövrü. Mən tam əminəm ki, Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik göstərəcək, güclü iradə göstərəcək. Azərbaycan xalqı yenə də birləşərək dağıdılmış bu şəhərləri, kəndləri bərpa etmək üçün əlindən gələni edəcəkdir. Biz bundan sonra böyük və qürurlu xalq kimi yaşayacağıq".

Əlbəttə ki azad edilmiş torpaqların dirçəlişi və reinteqrasiyası ümumilikdə ölkənin iqtisadi potensialının artmasına geniş imkanlar vəd edir. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqrammı"nın uğurla icrası bu baxımdan böyük önəm daşıyır. Bölgədə müxtəlif sahələri əhatə edən layihələrin icrası məqsədilə dövlət büdcəsindən 2021-ci ildən bu günədək 12 milyard manata yaxın vəsait ayrılıb. Bununla yanaşı, bərpa və quruculuq işlərinə özəl investisiya cəlb olunması əsas məqsədlərdəndir. İnvestisiya cəlbi ilə sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, məhsuldar ərzaq istehsalına əsaslanan dayanıqlı təcrübələrin tətbiqi, turizmin təşviqi və digər tədbirlər gerçəkləşdirilir.

### "2022-2026-CI İLLƏR ÜZRƏ DÖVLƏT PROQRAMI"NA ƏSASƏN CƏBRAYIL, QUBADLI VƏ ZƏNGİLANA 40 MİN NƏFƏR KÖÇƏCƏK

Müvafiq Dövlət Proqramına əsasən 2022-2026-cı illərdə Zəngilan, Cəbrayıl və Qubadlı rayonlarında 24 kənd, 5 qəsəbə və 3 şəhərin inşası planlaşdırılır. Hazırda Cəbrayıl şəhərində 712 mənzildən ibarət böyük bir kompleks artıq tikilir və 2 aydan sonra onun bir hissəsi təhvil veriləcək. Həmin bu kompleksə Cəbrayıl şəhərinin sakinləri qayıdacaqlar. Cəbrayıl rayonundakı kompleksə 712 ailənin köçürülməsi nəzərdə tutulur. Hazırda Zəngilanda da böyük abadlıq-quruculuq işləri görülür. 13 binadan ibarət bir kompleks tikilir və sakinlərin 2024-2026-cı illərdə ora köçürülməsi planlaşdırılır. Rayonun Cahangirbəyli kəndində də hazırda tikinti işləri həyata keçirilir. Həmçinin 2024-2026-cı illərdə Cəbrayıl rayonunun Xorovlu qəsəbəsinə, Qubadlı rayonunun Mahruzlu və Zilanlı kəndlərində də artıq tikintilər başlanılıb və həmin bu kəndlərə də köç nəzərdə tutulur.

"2022-2026-cı illər üzrə Dövlət proqramı"na əsasən Cəbrayıl, Qubadlı və Zəngilana 40 min nəfər köçəcək. Bu proses mərhələli şəkildə həyata keçiriləcək. Ümumiyyətlə, işğaldan azad olunmuş ərazilər yaşıl zona elan edilib və bunun sayəsində bütün inzibati binalarda, qeyri-yaşayış sahələrinin üstündə günəş panelləri istifadə olunur.

Artıq soydaşlarımız azad edilmiş ərazilərdə salınan yeni yaşayış məskənlərində məskunlaşmağa başlayıblar.

***Nəzakət ƏLƏDDİNQIZI***

TƏHLİL



# Kənddən gəldik şəhərə: bəs sonra?

***Urbanizasiya dünyanın bir çox yerində sürətlə artan prosesdir. İnsanlar könüllü ya könülsüz, özündən asılı olan və ya olmayan səbəblərdən kənd yerlərini tərk edərək şəhərlərdə məskunlaşırlar. Şəhərlərə bu sürətli köçün ən əsas və təməl səbəblərindən işsizlikdir. Rayon və kəndlərdə artan işsizlik nisbəti paralel olaraq şəhərlərdəki yüklənməni də artırır. Beləcə, kəndlərin boşalması fonunda gedən sürətli urbanizasiya zamanla şəhərlərin dolub-daşması, nəqliyyatın çoxalması, istixana qazı emissiyalarının artması deməkdir. Sürətli urbanizasiyanın əsas problemlərindən biri şəhər yerlərində ətraf mühitin keyfiyyətinin getdikcə aşağı düşməsidir.***



Şəhərlərdə avtomobillərin sayı artdıqca istixana qazı emissiyaları ətraf mühitin keyfiyyətinə mənfi təsir göstərir. Urbanizasiya və nəqliyyat faktorlarının ekoloji problemə təsirlərinin azaldılması istiqamətində konkret nəticə əldə etmək olmur. Çünki əhali ilə bərabər nəqliyyat da durmadan artır. Kəndlərdə maddi sıxıntı, dolanışıq problemləri yaşayanlar çıxış yolunu şəhərə köç etməkdə görür. Problemin həlli üçün rayonlara ciddi kapital qoyulmalı, fabrik-zavod inşa edilməli, iş imkanları yaradılmaldır.

Əhalinin artması və sənayeləşmə nəticəsində yaranan urbanizasiya stress, səs-küy və kirayə qiymətlərinin artması kimi sosial-iqtisadi təsirlərə səbəb olur. Durmadan böyüyən şəhərlərdə ətraf mühitin, hava və suyun çirklənməsi ekoloji problemlərin böyüməsinə gətirib çıxarır. Plansız və qeyri-müntəzəm urbanizasiyanın təbiətə mənfi təsirləri havanın çirklənməsi, suyun zəhərlənməsi və torpağın məhv edilməsidir. Torpağın məhv edilməsi isə həyatın bütünlüklə məhvi deməkdir. Necə ki, biz bunu yaşıllıqların getdikcə azalması ilə müşahidə edirik.

Şəhərlərdə kifayət qədər mənzil və iş imkanları olmadığı təqdirdə kənd yerlərindən şəhərlərə miqrasiya şəhərlərə mənfi təsir göstərir. Şəhərlərdə intensiv miqrasiya, plansız urbanizasiya, artan əhali və bunun fonunda cinayət nisbətləri, infrastruktur, nəqliyyat problemləri və işsizlik kimi çox sayda problemlərə səbəb olur. Urbanizasiya ilə cəmiyyətdə sosial və iqtisadi müstəvilərdə dəyişikliklər baş verir. Bu vəziyyəti hətta inkişaf etmiş dövlətlərin yüksək urbanizasiya sürətində və sosial inkişaf səviyyəsində görmək mümkündür. Urbanizasiya prosesi nəzarət altında, planlı şəkildə həyata keçirilərsə yaxşı nəticə əldə etmək olar. Şəhərin planının doğru hazırlanmaması, prospekt və küçələrin planlı salınması, planlaşdırılmamış bina tikintisi, yanlış infrastruktur və ya infrastrukturun ümumiyyətlə olmaması, nəqliyyatdakı problemlər də urbanizasiya problemlərindəndir.



Yaşıl şəhərlərin planlaşdırılması və tikintisində beynəlxalq meyarlar və onlara nəzarət edən sistemlər müasir şəhərlərdə mövcud olan problemləri aradan qaldırmaq üçün hazırlanır. Nəqliyyat müasir şəhərlərin ən mühüm problemləri arasında həmişə birinci yerdədir. Bu gün Bakıda nəqliyyat probleminin ciddi planlaşdırma problemi olduğu da gün kimi aydındır. Xüsusilə makro miqyaslı şəhərsalmada, yeni şəhər ərazilərinin ictimai nəqliyyata yaxınlığı, bina istifadəçilərinin maşın sürməyə ehtiyac olmadan bir çox sosial obyektlərə piyada gedə bilməsi, yaxınlıqda məktəb, xəstəxana, bağça mağaza kimi vacib obyektlərin olması şərtdir.

Şəhərləşmə nəticəsində artan binalar və onlarla əlaqəli infrastrukturlar yaxşı planlaşdırılmadıqda betonlaşmanın miqyası artır və yaşıllıq sahələri azalır. Belə olan halda insan həyatında mühüm yeri olan təbiətlə təmas getdikcə azalır, bitki və heyvan növləri azaldıqca biomüxtəliflik itirilir. Həmçinin yağış sularının udulması, həddindən artıq istiləşmənin qarşısının alınması istiqamətində yaşıllığın əhəmiyyəti böyükdür. Xüsusilə yaşıllıqların azalması, tikintinin çoxalması şəhər yerlərində güclü yağış, daşqınlara səbəb olur, can və mal itkiləri baş verir.

Bu gün şirin su ehtiyatlarının tədricən azalması onu göstərir ki, əhalinin artması ilə gələcəkdə suya çıxışın əhəmiyyəti də tədricən artacaq. Azərbaycan su ehtiyatlarına görə yoxsul ölkələr sırasındadır, ölkəmizin su ehtiyatlarının 2050-ci ilə kimi 15-20 faiz azalacağı gözlənilir. Araşdırmalara görə, bizim yerüstü su ehtiyatımız orta illik 32,3 mlrd. kubmetrdir. Quraqlıq illərdə isə bu göstərici 23 mlrd.kubmetrə qədər azalır. Ölkədə adambaşına orta illik 3800 kubmetr su düşür. Deməli, şəhərlərdə artan əhali bu resurslardan səmərəli istifadə etməlidir. Yeni dünya standartlarına uyğun tikilmiş yaşıl binalar səmərəli su qurğuları ilə təmin edilir, yağış suyu kimi alternativ su mənbələrinin təkrar emalı həyata keçirilir, bu yolla suyun daha səmərəli istifadəsini təmin edir. Beləliklə, standart binalarla müqayisədə 10% -dən 45% -ə qədər su səmərəliliyi əldə edilir.

Enerji təhlükəsizliyi və yüksək enerji xərcləri də müasir şəhər həyatında həm iqtisadi, həm də ekoloji baxımdan bir çox problem yaradır. Yaşıl binalarda enerji səmərəliliyi ilə bağlı bir çox məsələlər araşdırılır. Bu kontekstdə səmərəli bina kondisioner sistemləri, işıqlandırma sistemləri, istilik izolyasiyası və enerjinin avtomatlaşdırılması kimi məsələlər ön plana çıxır. Həmçinin bərpa olunan enerji mənbələrini təşviq etməklə zərərli emissiyaların qarşısının alınması planlaşdırılır. Bu, enerji xərclərini iqtisadi cəhətdən azaldır, eyni zamanda havanın çirklənməsinin və qlobal istiləşmənin azaldılması istiqamətində mühüm addımdır. Enerji səmərəliliyi könüllülük əsasında yalnız özəl sektorun ixtiyarına buraxılmayacaq qədər vacib bir məsələdir, bu həm dövlət, həm də ictimaiyyət tərəfindən tənzimlənməli və müntəzəm olaraq nəzarət edilməlidir.

Bu gün şəhərlərdə yaşayan insanların həyatının orta hesabla təxminən 90%-i binalarda keçir. Binaların və şəhərlərin dizaynında insan sağlamlığı və rahatlığı ilə bağlı bir çox məsələlər standartdır. Normal standartlarda tikilən binalarda yaşayan və işləyən insanların daha çox gün işığından faydalanması, daha çox təmiz hava alması, zərərli kimyəvi maddələrə daha az məruz qalması, daha işıqlı və daha az səs-küylü şəraitin yaradılması kimi standartlara əməl edilir. Lakin rabitəsiz, plansız tikilən bir çox binalarda bu standartlar nəzərə alınmır, günəş görməyən, işıq düşməyən, izolyasiyası olmayan binalar tikilib istifadəyə verilir.

Yeni tikililərin struktur təkmilləşdirilməsi ilə yanaşı, həmin regionun ekoloji inkişafı üçün ərazidə yaşayan, imkanlarından istifadə edənlərin sağlamlığı və rahatlığı, habelə sosial obyektlər, dövlət qurumları və təhsil müəssisələri ilə rahat təmas şərtdir. Binalar tikilərkən bu xırdalıqlara əhəmiyyət verilməli, sağlam, stressiz mühit təmin olunmalıdır.

***Lalə Mehralı***



Elçin Bayramlı

# Dəyişək inkişaf edək?

***Son vaxtlar maddi dəyərlər mənəvi dəyərləri üstələməkdədir. İnsanlarda depressiya, stress artıb. Hiyləgərlik üsulları xeyli rəngarəngləşib və təkmilləşib. Ümumi cəmiyyət maraqları şəxsi maraqlara qurban verilir. Əsas məqsəd çoxlu pul qazanmaq, vəzifə, şöhrət əldə etmək və özünü başqalarından üstün göstərmək üzərində fokuslanıb. Qanunu, qaydanı pozmaq üstünlük sayılır, başqalarından fərqlənmək (bu hətta pis şeylərdə olsa belə) azarı gənclər arasında geniş yayılır.***

Hətta gərgin münasibətlər ətraf mühitdən ailə daxilinə keçib və məhz bu səbəbdən münaqişələrin, boşanmaların və ailədaxili qətllərin sayı artır. Böyük sözünü vecinə alan da yoxdur. Bir çox gənclər açıqca deyirlər ki, biz hər şeyi bilirik və doğru edirik, siz yaşlı nəsil heç nə bilmirsiniz və səhv edirsiniz. Lakin reallıq bütün dövrlərdə və bütün ölkələrdə olduğu kimi tam əksini göstərir.

Əvvəllər milli-mənəvi dəyərlərimiz həyatımızın əsas sütunu idi. El arasında yazılmamış qanunlar adlandırılan ictimai davranış kodeksləri var idi və buna əməl olunurdu.

İnsanlar bir-biri ilə ədəb-ərkanla davranır, böyük-kiçik, qadın-kişi yeri bilinirdi. İctimai yerlərdə şit hərəkətlər, ucadan mahnı oxutmaq, dar keçidlərdə yolu kəsərək söhbətləşmək və ya zarafatyana süpürləşmək, ucadan danışmaq, hara gəldi zibil atmaq, avtobusda sürücü ilə söyüşmək, yarıçılpaq gəzmək yəqin ki, heç kimin ağlına belə gəlmirdi.

21-ci əsrə keçid sanki başqa bir dünyanı gətirdi. Pul və vəzifə uğrunda amansızcasına mübarizə mənəvi dəyərləri tədricən arxa plana keçirdi. Təhsilə, elmə, mədəniyyətə marağı əyləncənin əvəz etməsi, ağsaqqal-qarasaqqal münasibətlərinin çərçivədən çıxması, TV-lərdən şou, serial və kriminal verilişlərlə kütləvi əxlaqsızlaşma, psixotron terror, davamlı reklam təcavüzü ilə zövqlərin, xüsusiyyətlərin, davranışların, dəbin hansısa şübhəli xarici mərkəzlərdən formalaşdırılması siyahı təəssüf ki, xeyli uzundur. Bu psixotron terror mənəvi zombiləşmənin əsasını qoymaqdadır.

Bu tendensiya real həyatdan indi də virtual həyata keçib. Mediada təhqir, böhtan, şantaj yalan xəbər yayıb çoxlu izləyici əldə etmək və pul qazanmaq daha ayıb sayılmır. Sosial şəbəkələrdə, internet saytlarda biabırçılıq baş alıb gedir. Televiziyalar daha çox mənfi şeyləri təbliğ edir, maddi dəyərlərin mənəvi dəyərlərdən üstün olduğunu "göstərirlər" (burada əlbəttə dövlət və ictimai televiziya kanallarını istisna etmək lazımdır, onlar hələ də televiziyanın funksiyasını unutmayıblar).

Sosial şəbəkələrdə adamlar normal müzakirə aparmaq əvəzinə bir-birini "qırır". Heç kimin sözü heç kimə xoş gəlmir. Heç kim heç kimin "kitabını oxumur". Həqiqəti deyəni, nöqsanlarımızı üzə çıxaranı, düzəltməyə çalışanları, mənəvi dəyərləri müdafiə edənləri "geridə qalmış" adlandırır və az qalırlar linç edələr.

Bəli, bu gün qlobal mərkəzlər tərəfindən həyata keçirilən "Overton pəncərəsi" ilə cəmiyyətimizə yad dəyərlər oturdulur, hər şey tədricən dəyişdirilir. Bunun nəticəsində, indi müsbət şeylər mənfi sayılır, mənfi şeylər müsbət. Mənfilər çoxaldıqca müsbətlər azalır. Azlıq çoxluğa tabe olur.

İndiki qloballaşma dövründə milli-mənəvi dəyərlərimizi daha çox qorumalıyıq, çünki indiyədək heç vaxt olmadığı qədər güclü təzyiq və terror altındadır. Elmə-təhsilə daha çox fikir verib irəli getməliyik. Sağlam düşüncəli, savadlı uşaqlar yetişdirib tərbiyə etməli, xalqımızı, ölkəmizi dünyanın inkişaf etmiş ölkəsinə çevirəcək insanları qorumalı, küçə müğənnilərini və yarıçılpaq modelləri dinləmək əvəzinə alimləri, ziyalıları dinləməliyik. Yalnız bu yolla bir millət kimi yaşaya və inkişaf edə bilərik.

# Terrorların günahsız qurbanları

## Azərbaycan Dövlət Neft Akademiyasında törədilən terrordan 15 il ötür

***Terrorizm müasir dövrün ən təhlükəli təzahürlərindən biridir və müasir dünya bunun acı nəticələrini hələ də yaşayır. Terrorizm haqqında birmənalı tərif olmasa da, mütəxəssislərin əksəriyyətinin qənaətinə görə siyasi, dini, ideoloji və iqtisadi məqsədlərə çatmaq üçün qeyri-qanuni əməllərin, zorakılığın, gücün, hədənin tətbiq olunmasıdır.***





Təbii ki, real həyatda terror aktlarından daha çox günahsız insanlar, dövlət adamları ziyan çəkir və siyasi, etnik, dini və s. zəmində yaranan terrorların şahidi oluruq. Tarixin müxtəlif dönəmlərində Azərbaycan xalqı terror aktlarının, vəhşiliklərin, soyqırımların acı nəticələrini yaşamışdır. İnsanların həlak olması, onların sağlamlığına zərərin və əmlaka əhəmiyyətli ziyanın vurulması əlbəttə ki, terror olaraq hər zaman cəmiyyət tərəfindən nifrətlə qarşılanıb. İctimai təhlükələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və digər hərəkətlər insanların ömürlərini yarımcıq qoymuşdur. Terrorun ən çox rast gəlinən formaları terrorla hədələmə, sui-qəsd, girov götürmə, eləcə də partlayıcı qurğulardan, kimyəvi, bioloji, nüvə və radioloji silahlardan istifadədir. Müasir dünya inkişaf etsə də, yenə də terror hadisələrinə rast gəlirik. Bu gün baş verən hadisələrə, cəmiyyətə yanaşma da fərqlidir. Bəşər sivilizasiyasının yüksək nöqtəsində ağıl və idrakın sivil bir nöqtəyə yüksəldiyi zamanda insana sui-qəsdin edilməsi, düşünülmüş terrorun törədilməsi əlbəttə ki, heç bir məntiqə sığa bilməz. Dünya inkişaf etsə də bu gün ağıla sığmayan terrorların, faciələrin baş verdiyinin şahidi oluruq. Nə qədər müasirləşsək belə insan qanının tökülməsinə susayan, bunu törətməkdən usanmayanlarla hələ də bir zamanda yaşayırıq. İnsanlıq əleyhinə çevrilmiş terrorların günahsız qurbanları olanların faciəli ölümlər hər kəsdə bir nifrət, qəzəb hissini oyadır. Qeyri-qanuni zorun, gücün, hədənin tətbiq olunması insanlığa qarşı əməldir. Azərbaycan Dövlət Neft Akademiyasında (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) 30 aprel, 2009-cu il tarixində baş vermiş faciənin törədildiyi gündən 15 il ötür. Həmin günü o zamanı yaşayan insanlar olduğu kimi yaxşı xatırlayır. Səhər saatlarında 9:30 radələrində keçmiş Azərbaycan Dövlət Neft Akademiyasının Bakı şəhəri Dilarə Əliyeva küçəsində qaz-neft mədən və neft mexanikası fakültələrinin yerləşdiyi ikinci korpusuna daxil olan cinayətkarın birinci mərtəbədən altıncı mərtəbəyədək qarşısına çıxan şəxslərə "Makarov" tipli tapançadan atəş açması nəticəsində 12 nəfər həlak olub, 13 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Gülləyə tuş gələnlər arasında təhsil ocağının professorları, müəllimləri, laborantları və tələbələri olublar. Yaralıların 3-ü xarici vətəndaşı idi: ikisi Sudan, biri isə Suriya. Hadisə yerinə dərhal polisin xüsusi təyinatlı nizami hissəsinin, ərazi polis və prokurorluq orqanlarının məsul əməkdaşları gəliblər. Polis tərəfindən zərərsizləşdiriləcəyini görən silahlı cinayətkar özünü öldürüb. Cinayəti törətmiş 1980-ci il təvəllüdlü Gürcüstan vətəndaşı Qədirov Fərda Əsəd oğlunun üstündən ona məxsus şəxsiyyət vəsiqəsi, "Makarov" tipli tapança, habelə hər biri 40 güllə tutumlu və içərisində 71 güllə olan xüsusi üsulla hazırlanmış 3 patrondaş, 2 tapança sandıqçası aşkarlanaraq götürülüb. Cinayət işi üzrə təqsirli bilinən dörd nəfər də layiqli cəzalarını alıblar.

Aprelin 30-da Dövlət Neft Akademiyasında baş vermiş faciəli hadisə nəticəsində həlak olanların ailələrinə və ağır xəsarət alanlara maddi yardım ayrılması haqqında Azərbaycan Prezidenti İlham Əliyev Sərəncam imzalayıb. Sərəncama əsasən, dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan prezidentinin ehtiyat fondundan həlak olanların ailələrinə 30 min manat, ağır xəsarət alanlara isə 15 min manat birdəfəlik maddi yardım ayrıldı.

15 il əvvəl baş vermiş dəhşətli terror hadisə hər kəsin qəlbində dərin iz buraxıb. Belə terror aktları neçə-neçə insan ömrünü yarımçıq qoyur. Azərbaycan Dövlət Neft və Sənaye Universitetində faciə qurbanlarının xatirəsinə barelyef qoyulub. Hər il 30 aprel terror qurbanlarının xatirəsi yad edilir.

### QAN DONDURAN TARİXİ FAKTLAR

Yaşadığımız tarix göstərir ki, erməni terrorlarının ölkəmizdə sayı-hesabı yoxdur. Dünyanın ən tanınmış terror təşkilatları sırasında Ermənistanın ASALA terror təşkilatının da yer aldığı hamıya bəllidir. ASALA, MAQ, "Erməni İttifaqı", "Erməni Azadlıq Cəbhəsi" terror təşkilatları ilə yanaşı, "Armenakan", "Hnçak", "Daşnaksütun" partiyalarının da proqramının əsasını terrorizm, terror üsulları təşkil edir. XIX əsrin sonları və XX əsrdə bu və digər erməni terror təşkilatları Azərbaycanda və Türkiyədə dəhşətli terror aktları törətmiş, on minlərlə günahsız insanı xüsusi amansızlıqla qətlə yetirmiş və ya ömürlük şikəst qalmalarına səbəb olmuşlar.

Azərbaycanın tarixində belə hadisələrin sayı kifayət qədərdir. 20 sentyabr 1991-ci ildə Xankəndi şəhərində Şuşa-Ağdam yolunu birləşdirən Xəlifəliçay üzərindəki körpü partladılmasında cinayəti törətmiş Artur Amramyan həbs olunmuş və 15 il müddətində azadlıqdan məhrum olmuşdur. Bu o illərdə Xankəndidə törədilmiş ilk və son terror deyildi. Qısa bir şəkildə son xronologiyaya nəzər salsaq görərək ki, şəhərdə terror, sui-qəsd və hücum aktları kifayət qədər törədilib. 28 iyun 1989-cu il tarixində ermənilər tərəfindən Badara qəsəbəsindən Meşəliyə gedən şosse yoluna qoyulmuş partlayıcı qurğunun işə düşməsi nəticəsində maşındakı 6 nəfər mülki azərbaycanlı ağır yaralanıb. 1990-cı il may ayında Bakı-Xankəndi qatarı və Xankəndi-Ağdam avtobusu partladılıb. 1990-cı ilin iyununda xankəndili Əşrəf və Ələmşah adlı iki qardaş 336-cı moto-atıcı alayın qarşısında diri-diri yandırılıb. 5 sentyabr 1991-ci ildə Xankəndidəki radio-televiziya stansiyası partladılıb. Bu günə kimi bu hadisədə əli olanların adları məlum deyil. Tarixi mənbələrə hər dəfə nəzər saldıqda dəhşətli faktlar insanı susdurur. 1991-ci il yanvarın 5-də Kərkicahan ərazisinə ermənilər tərəfindən hücumlar olunur. Beləcə, qəsəbə 3 nəfəri itirir. Lakin erməni tərəfindən də, çoxlu itkilər olur. 1991-ci il 9 yanvar tarixində Baqmanyan Akop Qavruşoviç və Antonyan Artuşa Qriqoroviç tərəfindən DQMV-nin Daxili İşlər İdarəsinin rəisi general mayor V.Kovalyovun həyatına sui-qəsd edilmişdir. Buna səbəb kimi onun azərbaycanlıları müdafiə etməsi və sui-qəsdin yuxarı dairələrdən sifariş olunması göstərilmişdir. 1989-cu ilin oktyabr ayında evinə qayıdan iki nəfər Kərkicahan sakini güllələnmişdir. 1991-ci il fevralın 4-də ermənilər azərbaycanlılar yaşayan bir neçə binanı partladır, gülləyiblər. 1991-ci ilin yayında Xankəndi-Şuşa avtomobil yolunda SSRİ DİN Daxili Qoşunlar mayoru L.Xomiç qətlə yetirilmişdir. 24 fevral 1991-ci ildə Şuşadan Ağdam rayonuna gedən "PAZ-3205" dövlət nömrə nişanlı avtobus şəhər ərazisində partladılmış, nəticədə 7 nəfər vəfat etmişdir. Həmçinin ermənilər bu zaman ərzində oğurluq və talançılıq işlərinə də, əl atıblar. İllər uzunu ölkəmizin demək olar ki, hər bir yerində ermənilər tərəfindən törədilən bu və ya digər faciələri, qətliamlar yaşamışıq.

Onu da xüsusi olaraq vurğulayaq ki, 1994-cü ildə atəşkəs rejiminin elan olunmasına baxmayaraq, Vətən müharibəsinə qədər 30-dan artıq azərbaycanlı uşaq erməni terrorunun qurbanı oldu. Onlardan 13-ü həlak olub, 19-u isə yaralanıb. 2 yaşlı Zəhra Quliyeva da erməni vandalizminin qurbanına çevrildi. Bu, nə insanlığa, nə də beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən hüquqi normalara sığır. İnsan hüquqları sahəsində mövcud beynəlxalq sənədlərə məhəl qoymayan Ermənistan müharibə zamanı mülki əhalinin qorunması haqqında 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyasının, BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının və digər sənədlərin müddəalarını kobud şəkildə pozub. Çox təssüf ki. sivil dünyamızda terrorçuluq əməllərinin şahidi olmuşuq. Özü də tarixi, dini, mədəniyyəti, dili olmayan ermənilər tərəfindən törədilən terrorun.

### TERRORÇU DÖVLƏTİN ƏMƏLLƏRİ

Bu terror aktları qəddar, faşist xislətli əməllərdir ki, xalqımız bunu yaşayıb. 44 günlük Vətən müharibəsində də xalqımız ermənilərin təcavüzkar siyasəti ilə üz-üzə qaldı. Vətən müharibəsində biz erməninin vəhşi simasını bir daha görmüş olduq. 30 ilə yaxın bir zamanda beynəlxalq hüququn tələb və təkidlərinə məhəl qoymayan beynəlxalq konvensiyalara zidd topladığı silahlarla 44 günlük Vətən müharibəsində beynəlxalq hüquq müstəvisində Ermənistanın işğalçı, eyni zamanda, terrorçu dövlət olduğunu tam şəkildə sübuta yetirən yetərincə faktlar mövcuddur. Gəncə, Tərtər, Mingəçevir kimi yerlərdə mülki əhalinin kompakt yaşadığı ərazilərə raket zərbələri endirməsi Ermənistan hökumətinin təcavüzkar, terrorçu simasını ortaya qoymuş oldu. Qocaya, cavana, uşağa qıyan erməni müharibə qanunlarını belə pozaraq çirkin niyyətləri ilə tarixən nəyə xidmət etdiklərini bir daha göstərdi. Neçə-neçə qurbanlarımız oldu. Bu, erməni faşist ideologiyasıdır. Vətən müharibəsi zamanı düşmənin xain atəşi nəticəsində təkcə Tərtərdə, ümumilikdə, 16 mülki şəxs qətlə yetirilib, 63 nəfər yaralanmışdır. Müharibə zamanı, həmçinin Tərtər şəhəri də daxil olmaqla, rayonun 40 yaşayış məntəqəsinə 16 min 277 tank, top, qrad, minomyot mərmisi, 21 qadağan olunmuş raket atılmışdı. Nəticədə, Tərtərdə 82 çoxmərtəbəli yaşayış binasına, 5949 fərdi evə, 184 sahibkarlıq və 301 qeyri-yaşayış obyektinə, 17 məktəbə, 11 uşaq bağçasına, 1 texniki peşə məktəbinə, 1 musiqi məktəbinə, 30 inzibati binaya və 20-yə yaxın mədəniyyət və səhiyyə müəssisəsinə ziyan dəymişdir. Mülki əhaliyə atəş açmaq isə bütün beynəlxalq konvensiyalarla qadağan olunur və yolverilməzdir. Ona görə də, Ermənistanın beynəlxalq qurumlar qarşısında cavab verməlidir. Moskvada imzalanan humanitar atəşkəs rejimindən sonra Ermənistan silahlı qüvvələrinin qədim Gəncəni raket atəşinə tutması nəticəsində mülki obyektlərə və yaşayış məhəllələrinə aramsız atəşlər yağdırıldı. Çoxlu dağıntılar oldu, insanlar həlak oldu, yaralandı. Onların arasında uşaqlar və qadınlar da var. Gəncədə mülki insanların məskunlaşdığı əraziyə raket hücumu bir daha Ermənistanın günahsız insanları, uşaqları, qadınları hədəfə alaraq ardıcıl olaraq bu cür çirkin hücumlara əl atması onun faşizm xislətini və cinayətkar mahiyyətini bir daha sərgiləyir. Ermənistanın mülki obyektlərə və yaşayış evlərinə raket hücumu beynəlxalq sənədlərə ziddir və Ermənistan bu hərəkətə görə cavab verməlidir. Gəncədə yaşanılan matəm erməni təcavüzkarlığının əsl siması idi. Bu tarixdir: erməninin terrorçuluq əməllərinin izi və tarixi. Gecə insanların evlərində yatdığı zaman raket atəşi nəticəsində dağılan yaşayış massivi və raket zərbəsindən məhv olmuş məhəllədə dağılan evlərin qalıqları hər zaman kino lenti kimi göz önündən keçir. Qanlı gecədə sakinlərin həyatını itirməsi, erməni terroristlərinin dinc əhaliyə qarşı törətdikləri cinayətlər sənədlərin dili ilə hər zaman danışır. Yatmış insanlara qarşı törədilən terror insanlıq əleyhinə olan cinayətdir.

Yaşadığımız tarix göstərir ki, erməni terrorlarının ölkəmizdə sayı-hesabı yoxdur. Mənfur qonşularımız bizə qarşı məkrli, çirkin niyyətlərini həyata keçirmişdilər.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Sərhəddən sovrulanlar...

***Ermənistanla Azərbaycan arasında sərhədlərin delimitasiya və demarkasiya prosesini sıfır nöqtədən çıxdığını qətiyyətlə demək olar. Erməni dövlətinin başında duranlar, yəni Paşinyan iqtidarı çıxılmaz durumdadır, "versəm öldürərlər, verməsəm ölləm" dilemması qarşısındadır. 2020-ci il üçtərəfli Bəyanatının şərtlərinə görə, Ermənistan işğal altında saxladığı bütün əraziləri xoşluqla, yəni hərbi əməliyyat keçirilmədən geri qaytarmalıdır.***



*Delimitasiya üsyançıları Azərbaycanla sülhə əngəl törətmək üçün erməni hakimiyyətinə təzyiqləri artırıb*

Əks təqdirdə Azərbaycan bunu silah gücünə həll etmək hüququnu özündə saxlayır. Yəni əvvəldən deyildiyi kimi, Azərbaycan Ermənistanın bir qarış ərazisinə iddia etmir, öz ərazisinin bir metrinin də başqa ölkənin əlində olmasına imkan verməyəcək.

Cənubi Qafqazda gedən prosesləri yaxından-uzaqdan izləyən beynəlxalq güclərin də Azərbaycanın mövqeyi ilə razılaşmamaq niyyətləri yoxdur, ölkəmiz həm 44 günlük müharibədə, həm də ondan sonra, ta bu günümüzə qədər hərbi əməliyyatları, antiterror tədbirlərini yalnız öz suveren ərazilərində, dünya birliyi tərəfindən tanınmış torpaqlarında keçirib. Kimsənin bizə irad tutmasına imkan verilməyib. Amma bütün bunlara rəğmən dünyanın bəzi mərkəzləri, dövlətləri hələ də bizə qarşı kin bəsləməkdədirlər. Sanki torpaqları 30 ildən artıq işğalda saxlanılan Azərbaycan yox, Ermənistandır, işğalçı Ermənistan yox, Azərbaycandır.

Bu gün vəziyyət kökündən dəyişib, superdövlətlərin edə bilmədiyini, 30 il imitasiyası ilə məşğul olduğu problemi Azərbaycan 44 günlük savaşda edib. Erməni işğalına son qoyub, separatçılığın kökünü kəsib. Əvəzində münaqişənin həlli ilə uzun illər və səmərəsiz məşğul olan dövlətlərin – ABŞ və Fransanın hələ də basqısı, hücumu altındadır. ABŞ Senatındanı "ermənilərin dostu" qrupu Azərbaycana qarşı sənədi qəbul etdirməyə yaxın kimi görünürlər. Onların siyahısında olan 44 nəfərə guya ölkəmizdə insan haqlarının pozulmasında bilavasitə rol oynadıqlarına görə sanksiya tətbiq etmək istəyirlər. Siyahıda hüquq-mühafizə, ədliyyə orqanlarında çalışan yüksək çinli məmurlarla yanaşı 44 günlük Vətən müharibəsində qələbəmizin əldə edilməsində müstəsna xidmətləri olan komandirlərin olması Senatın nə qədər çirkin və ermənipərəst mövqedə olmasını isbatlayır. Eyni zamanda Fransanın rəhbərliyi və təzyiqi ilə Avropa Parlamentində Azərbaycana qarşı sanksiyaların tətbiq olunması barədə müzakirələrin intensivləşməsi də bu qəbildəndir. Hər iki dövlət Ermənistanı müdafiə etməkdən çox, itirilmiş nüfuzlarını bərpa edirmişlər kimi görünür.

## Blinkenin İlham Əliyevə zəngi

Antoni Blinken ilk növbədə Ermənistan ilə Azərbaycan arasında sərhədlərin delimitasiyası sahəsində əldə olunmuş razılaşma ilə bağlı təbriklərini çatdırıb, bunun ABŞ tərəfindən təqdir edildiyini vurğulayıb. Dövlət katibi ABŞ-ın Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh gündəliyinin irəli aparılması üçün bundan sonra da dəstək göstərməyə hazır olduğunu bildirib. Azərbaycan Prezidenti İlham Əliyev isə iki ölkənin delimitasiya komissiyası tərəfindən əldə olunmuş razılaşmanın ikitərəfli əsasda aparılmış dialoq və qarşılıqlı anlaşma şəraitində keçirilmiş müzakirələrin nəticəsi olduğunu qeyd edib. Prezident İlham Əliyev delimitasiya prosesinin ardınca iki ölkənin sərhədində artıq demarkasiya işlərinin başlanmasının da müsbət bir addım olduğunu vurğulayıb. Dövlətimizin başçısı sülh müqaviləsi üzrə danışıqların davam etdirilməsi üçün Qazaxıstan tərəfinin təklifinə uyğun olaraq tezliklə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Almatıda görüşəcəklərini bildirib. Sülh müqaviləsinin və onun əsasını təşkil edən 5 prinsipin təşəbbüskarının Azərbaycan Respublikası olduğunu xatırladan Prezident İlham Əliyev ölkəmizin sülh gündəliyinin bundan sonra da davam etdirilməsi üçün səylərini əsirgəməyəcəyini vurğulayıb və Azərbaycanın bu xüsusda qəti siyasi iradəyə malik olduğunu qeyd edib. Dövlətimizin başçısı bildirib ki, Azərbaycan regionda hər hansı ayırıcı xətlər olmadan inteqrasiya olunmuş Cənubi Qafqaz regional əməkdaşlıq modelinin qurulmasını dəstəkləyir. Dövlət katibi ABŞ ilə Azərbaycan arasında ikitərəfli əlaqələrin gücləndirilməsi üçün ölkəsinin niyyətini ifadə edib. Dövlətimizin başçısı da öz növbəsində Azərbaycanın ABŞ ilə ikitərəfli əlaqələri inkişaf etdirməkdə maraqlı olduğunu vurğulayıb.

## Ermənilərin dərdi...

Ermənistan hakimiyyətinin Tavuş vilayəti ilə qonşu olan Azərbaycan ərazilərinin, o cümlədən həmin ərazilərdə sonradan salınmış yaşayış məntəqələrinin bir hissəsinin Azərbaycana geri qaytarılması ilə bağlı razılaşması ölkənin müxtəlif rayonlarında etirazlara və yolların bağlanmasına səbəb olub. Ermənistan rəhbərliyi başladığı işi başa çatdırmaq niyyətində olduğunu nümayiş etdirir və Bakı ilə davamlı sülh əldə etməyə ümid edir. Amma İrəvanda heç də hamı bu münasibəti bölüşmür. Ermənistandan Gürcüstana gedən avtomobil yolu bir həftəyə yaxındır ki, Kirants kəndinin çıxışında bağlanıb. Onlayn xəritələr respublikanın şimal-şərqindəki bu kəndin Azərbaycana nə qədər yaxın olduğunu göstərir. "İnsanların özləri etiraza çıxdılar, çünki onlara sərhədin evlərindən və bağlarından çəkiləcəyi bildirilib. Mən gəldim, çünki bu mənim sürümdür və mən burada olmalıyam. İnsanlar bu prosesi dayandırmaq istəyirlər ki, biz həssas vəziyyətdə qalmayaq. Amma biz artıq həssas vəziyyətdəyik", bunu Müqəddəs Nerses Şnorali kilsəsin keşişi Ata Simeon deyib.

Ermənistanla Azərbaycan arasında sərhədin delimitasiyasını prosesi aprelin 19-dan başlayıb, artıq razılıq əldə olunub. Məlum olub ki, sərhəd xətti ermənilərin sonradan məskunlaşdırıldığı Kirants kimi kəndlərdən keçməli olacaq. Delimitasiyanın başlanması barədə Ermənistan-Azərbaycan razılaşması əldə olunan kimi etirazlar başlayıb. Bəzi yerlərdə, məsələn, M-6 magistralının Gürcüstan sərhədi yaxınlığındakı hissəsində polislə toqquşmalar baş verib və həbs olunanlar var. Etirazçılar arasında hərbi geyimdə olan və özlərini "fidain" adlandıran çoxlu adamlar olub. Onlar magistral yolu bağlamağa çalışıblar, lakin polis problemi kifayət qədər uğurla həll edib və tezliklə nəqliyyatın hərəkəti bərpa edilib.

Məsələnin bir çətinliyi də bundadır ki, dərhəddə nələri baş verdiyini ermənilərin əksəriyyəti bilmir, sadəcə etiraz aksiyası olduğu üçün uzaq bölgələrdən gəlib bura toplaşırlar. Sərhədin delimitasiyası və demarkasiyası ilə bağlı bütün rəsmi hesabatların ümumi bir cəhəti var ki, o da konkretliyin olmamasıdır. Nəticə etibarı ilə Azərbaycana konkret nəyin, nə vaxt dəqiq və necə veriləcəyini heç kim başa düşə və ya həqiqətən izah edə bilmir. Ermənilərin əlindən keçən kağızlar mətbuata ötürülür, onlar isə bu məlumatları daha qərəzli formada oxuculara təqdim edirlər. Azərbaycan geri verilən kəndlərin kimə məxsusluğundan az erməninin xəbəri var.

Ermənistanın baş naziri Nikol Paşinyan sosial şəbəkələrdə məsələyə bu cür yanaşıb: "Aydındır ki, bu, çox ağrılı məsələdir və aydındır ki, bura başqasının evi deyil, mənim evimdir. Yol problemi, ev problemi var, amma qeyd edim ki, biz heç bir evin, yolun, kəndin məsələsini həll etmirik. Biz yaxın onilliklərdə Ermənistanın mövcudluğu məsələsini həll edirik. Biz isə bu məsələni həll edəcəyik, başqa çarəmiz yoxdur". Bu şərhdə Azərbaycanla sülhün olub-olmayacağı, bunun nə vaxt olacağı və davamlı olub-olmayacağı ilə bağlı heç bir aydınlıq yoxdur. Erməni politoloq, İrəvan Regional Demokratiya və Təhlükəsizlik Mərkəzinin rəhbəri Tiqran Qriqoryan deyib ki: "Azərbaycan öz şərtləri ilə sülh istəyir - qalibin sülhü budur. Onlar bu strategiyanı təbliğ edirlər".

Erməni ekspert Tiqran Qriqoryan Prezident İlham Əliyevin yanvar müsahibəsini xatırladır ki, Azərbaycan Prezidenti Cermuk ətrafında yaranmış vəziyyəti şərh edərkən demişdi ki, bizim əlimizdə elə yüksəkliklər olmalıdır ki, ermənilərin nə planlaşdırdığını öz gözlərimizlə görək. Məsələ burasındadır ki, erməni millıətçi-revanşistlərin təşkil etdiyi bütün aksiyaların başında keşişlər dayanır. "Vətən üçün Tavuş" hərəkatının rəhbəri, arxiyepiskop Baqrat Qalstanyan və Ermənistan Dövlət Gəlirləri Komitəsinin keçmiş rəhbəri David Ananyan da onlarla bir sıradadır. Bir qrup Şirak sakini etirazlara qoşulmağa və yeni ərazi güzəştlərinin qarşısını almağa çağırışlarla Gümrüdə yürüş keçirib. Daşnaksütyun gənclər birliyinin üzvləri bazar günü Kirantsda olub, orada arxiyepiskop Baqrat Qalstanyanla görüşüb və Tavuşda yaradılmış hərəkata dəstək ifadə ediblər.

Ümumiyyətlə, hazırda regionda həssas geosiyasi vəziyyət yaranıb. Azərbaycan 30 il sonra reallıqları dəyişib. Qazaxın 4 qeyri-anklav kəndi bir güllə belə atılmadan Azərbaycana qaytarılıb. Delimitasiya prosesi uğurla davam edir və ən əsası prosesin davamı üçün sərhəd komissiyalarının görüşləri keçirilir. Azərbaycan Prezidenti İlham Əliyev aprelin 23-də ADA Universitetində keçirilən "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forumda çıxışı zamanı qeyd etdi ki, "Biz sülh sazişinin imzalanmasına heç vaxt olmadığı qədər yaxınıq. Biz işğal zamanı buna heç vaxt yaxın olmamışıq. Həmin vaxt biz baza prinsipləri üzərində belə razılığa gələ bilmirdik".

**V.VƏLİYEV**

# "Nar"dan sərfəli smartfon təklifi




Müştərilərinə sərfəli qiymətlər təklif edən "Nar" satış və xidmət mərkəzlərində Xiaomi və Tecno smartfonlarının ən məhşur modellərini təqdim edir. Qeyd edilən smartfonları nağd ödəniş və ya BirKart ilə aldığınız təqdirdə, 10%-ə qədər xüsusi endirim əldə edəcəksiniz. Digər bir üstünlük isə, bu smartfonların alıcılarına 12 ay pulsuz mobil internet və bir illik zəmanət verilməsidir.

Bundan əlavə, operatorun sərfəli qiymət strategiyasına uyğun olaraq, müştərilər BirKart ilə ödəniş edərkən Xiaomi və ya Tecno modellərini ayda cəmi 14,4 AZN-dən başlayaraq əldə edə bilərlər. Təklif edilən ən sərfəli cihazın qiyməti cəmi 184.9 AZN-dir. "Nar" mağazalarında smartfon satışı ilə yanaşı, mobil telefonlar üçün müxtəlif cihaz və aksessuarlar, telefon nömrələrinin satışı və bərpası, eləcə də digər xidmətlər təklif olunur. Operatorun müştəri yönümlük strategiyasına uyğun olaraq, "Nar" abunəçiləri bu yüksək keyfiyyətli xidmətlərdən sərfəli qiymətə yararlana bilərlər. "Nar" mağazalarının siyahısı və təklif olunan xidmətlər haqqında ətraflı məlumatı keçidə daxil olaraq əldə edə bilərsiniz.

Hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# 10 000-lərlə azərbaycanlı innovasiyanı qarşıladı

Ölkənin ən böyük özəl telekommunikasiya şirkəti Bakcell, 25 aprel tarixində baş tutan mətbuat konfransında yeni brend kimliyini elan edib. "Bakcell"in dəyişən dünyanın tələblərinə uyğun rebrendinq tədbiri dünən axşam Bulvardakı innovasiyalarla dolu konsertlə davam edib.

Azərbaycanın telekommunikasiya sahəsi üçün innovasiya və həyəcan dolu bir gündə Bakcell, Röya, Miri Yusif, Tünzalə Ağayeva, Murad Arif, Hüsniyyə Məhərrəmova kimi tanınmış simaların iştirakı ilə tamaşaçılara möhtəşəm şou sərgiləyib. Tədbirin ən maraqlı məqamlarından biri də Bakcell-in mətbuat konfransında açıqladığı süni intellekt dəstəkli humanoid robot Ardinin Murad Ariflə duet oxuması olub. 10 000-lərlə tamaşaçının olduğu tədbirdə gecə boyunca müsabiqələr təşkil edən Bakcell, iPhone 15 Pro Max və digər dəyərli hədiyyələri qaliblərə yerindəcə təqdim edib. Gecənin sonunda isə Bakcell-in vəd etdiyi 100 000 GB hədiyyə bütün Bulvara paylanılıb.





# EFFEKTİN qızları...

***Dövrümüzə müasir texnologiyanın verdiyi "töhfələrdən" biri də tanınmaz vəziyyətə salınan fotolardır. Yəni telefon və kompüterdəki proqramlar vasitəsilə istənilən fotonu effekt vasitəsilə dəyişmək mümkündür. Bu proqramlar gözü böyüdür, burnu kiçildir, üzdəki sızanaqları yox edir, saçın, gözün, dərinin rəngini dəyişir, dodaqları dolğunlaşdırır, üzü hamarlaşdırır. Bir sözlə, bu fotoların həyatdakı mən, sən, o ilə əlaqəsi belə qalmır. Hazırda hər kəsin, xüsusilə də gənc qızların ən çox istifadə etdiyi bu proqramlarla fotolara o qədər effekt verilir ki, real həyatla heç bir əlaqəsi qalmır. Və bu da əslə doğru olmayan bir məsələdir və artıq bu sarıdan problemlər də yaşanır.***




Dövrümüzdə telefon vasitəsilə foto çəkdirməyin və bu fotolarda hər kəsin nədənsə gözəl, gənc görünməsinin dəb olduğunu nəzərə alaraq, gəlin, bu barədə danışaq.

## Güzgüdəki, yoxsa həyatdakı mən?

Söz yox ki, hər bir qadın, xüsusilə də gənc qızlarımız hər gün güzgü qarşısında bəzənib-düzənmədən, makyaj etmədən bayıra çıxmırlar, bu da təbiidir, çünki qadın baxımlı olmalıdır. Kimi universitetə, kimi işə, kimi toydüyünə, kimi gəzməyə yollanır. Nəzərə alsaq ki, dövrümüzün dəblərindən biri də şəkil çəkdirməkdir, gün ərzində evdən çıxan qadınların əksəriyyətinin heç olmasa, bir neçə şəkil çəkdirməməsi mümkün deyil.

Müxtəlif pozlarla çəkdirilən bu şəkillər isə hökmən sosial şəbəkələrdən birində nümayiş edilməlidir. Çünki dövrümüzdə özünü nümayiş, reklam etdirmə, tələbə, iş yoldaşlarına, qohumlara göstərmək kimi də bir dəb var. Elə ki, fotolar çəkildi, həmin dəqiqə paylaşıla bilməz. Gərəkdir ki, bu fotolar müxtəlif proqramlar vasitəsilə arzu olunan formaya salınsın, daha sonra paylaşılsın.

Sağ olsunlar, yeni texnologiyanın imkanlarını hər gün bir qədər də artıranlar. Son vaxtlar elə proqramlar var ki, onu əvvəldən seçməklə effektli şəkil çəkdirmək olur. Lakin belə oradadır ki, bəzi qızlar həmin fotoların da üzərində bir qədər işləməli olurlar: ya burun kiçildir, ya dodaq böyüdür, ya da sızanaqlarını bir qədər də gizlədir, daha sonra paylaşırlar.

Həmin şəkillərə baxdıqca lap yaxından tanıdığın birinin axı əslində o olmaması adama çox qəribə gəlir. Belə bir sual çıxır meydana ki, biz kimi aldadırıq? Axı əslində bu fotodakı sən deyilsən. Effektdən son həddə qədər istifadə edib özünü dəyişdirməklə deyil, sən, bu, deyilsən. Sən səhər güzgüdə gördüyün sənsən, sosial şəbəkələrdə paylaşdığın sən deyilsən.

## Effektli fotoların sabahı var...

Onsuz da kimin harada hansı fotosunu paylaşmasından asılı olmayaraq bir çərçivəsi var və həmin çərçivədəki hər kəs onu yaxşı tanıyır. Qaldı, kənardakı tanımayan insanlar, onlar da nə vaxtsa qarşılaşa və əslində necə olduğunu görə bilirlər. Elə söhbətin bu yerində sosial şəbəkələrdən birində tanış olduğum qadın yadıma düşdü. Hər gün onu həmin sosial şəbəkədə görürdüm. Qadın o qədər gənc, gözəl görünürdü ki, adam baxdıqca baxmaq istəyirdi.

Günlərin birində bir tədbirdə həmin qadınla rastlaşmalı oldum. Salamlaşdıq, görüşdük, həyatda da tanış olduq. Lakin gördüm ki, o, heç də mənim indiyədək tanıdığım qadın deyil. Düzdür, çirkin qadın yoxdur, o da gözəldir. Lakin mənin hər gün gördüyüm gənc qadın deyildi. Nə üz dərisi gördüyüm kimi təravətli idi, nə gözlərinin altı parlaq və qırışsız. Gözlərinin altı həm qara ləkəli, həm də qırışlı idi. Üzü mən gördüyüm şəffaflıqda deyildi. O saat anladım ki, müasir dövrün fotolarla aldatdıqlarından biriyəm.

Sosioloq Lalə Mehralı qadınların, xüsusilə də gənc qızların fotolarını proqramla özlərinə bənzəməyən şəkildə dəyişmələrinin əleyhinədir. O, ifrat dərəcədə olan halın əslə düzgün olmadığını bildirdi və bununla bağlı qarşılaşdığı bir hadisəni də bizə danışdı: xarici ölkələrdən birində yaşayan həmyerlimiz azərbaycanlı qızla evlənmək istəyir. Sosial şəbəkələrdən birində zövqünü oxşayan bir qızla tanış olur. Onlar bir-birilərini sevməyə başlayır. Lakin qız oğlanın görüntü ilə danışmaq təklifini də hər dəfə rədd edir. Əsas isə onu gətirir ki, mən bu cür danışmağı sevmirəm. Oğlan da onun fikrinə sayğı ilə yanaşır. Aradan xeyli vaxt ötür. Artıq oğlan bu tanışlığı rəsmiləşdirmək, yəni ailə qurmaq qərarına gəlir.

Anası ilə birlikdə Azərbaycana gəlib, qızın yaşadığı rayona gedirlər. Oğlan qızla vədələşir, görüşürlər. Və həyatdakı bu ilk görüşləri



onların son görüşü olur. Çünki oğlan qarşısında tamamilə ayrı bir qızı görür. Öncə gözlərinə inanmır, lakin qızın səsi onun həmin qız olduğunu təsdiqləyir. Oğlan fotodakı sarışın qız əvəzinə, qaraşın qız görür qarşısında. Lakin əslində könlünün diktəsi əsasında sarışın qız seçmişdi və belə bir qızla evlənmək istəmişdi.

Lalə xanım vurğulayır ki, beləliklə, oğlan qəti şəkildə etirazını bildirir və aldandığı üçün özünü də məzəmmət edir.

Yüzlərlə belə hadisələr baş verir. Qızlar fotoları ilə oğlanları aldadırlar. Nəticə isə yuxarıdakı fikirdə olduğu kimi, heç də uğurlu olmur. Bəs belə isə, bu qızlar əslində də kimi aldadırlar: özlərini, yoxsa qarşısındakı insanları?..

## Bir vaxt var idi...

Elə bu söhbətin fonunda ötənarxada qalan illər adamı səsləyir. O gözəl fotolar, illərlə öz təravətini itirməyən, hətta bu günə qalan fotolar bir kino lenti kimi keçir gözlər önündən. O fotolarda əbədiləşən insanlar, həm də tamamilə təbii halı ilə bu gün gördüyümüz fotolardakılardan tamamilə fərqlidir. O fotolarda insan həyatda necədirsə, elədir. O fotolar bizim xanım-xatın nənələrimizin, analarımızın, bibi-xalalarımızın fotolarıdır. Bugünkü saxta gözəllikdən çox kənarda olan fotolar... Həm də bugünkü fotolardan qat-qat keyfiyyətli olan fotolar...

Heç indi foto çəkdirən kimdir ki? Nə evlərdə bir ailə fotosu var, nə kiminsə tək fotosu. Əslində minlərlə foto çəkilir, lakin telefon vasitəsilə, elə telefonun da yaddaşında qalır. Bəzən telefonda yaranan bir problem səbəbindən hamısı silinib gedir. Sabaha heç biri də qalmır. Qalanlar isə effektlərlə o qədər dəyişdirilir ki, məxsus olduğu xanıma əslə bənzəmir.



İndi foto az-çox ancaq toy mərasimlərində fotoqraflar tərəfindən çəkilir. Bu fotoları çəkdirənlər isə əslə gənc nəslin nümayəndələri deyil, onların valideynləri, özlərindən yaşda böyük olanlardır. Həmin fotolar da o qədər keyfiyyətsiz olur ki, aradan 5-6 ay, uzağı bir il ötəndən sonra həmin fotolardan heç nə anlaşılmır. Çox keçməz ki, tək toy mərasimlərində qalan fotolar da tarixə qovuşar. Onsuz da hər kəsin əlində bir telefon var, telefonla da çəkir. Axı əksər müasir gəncimiz effektli fotolara üstünlük verir. Onların nəyinə lazımdır fotoqrafın çəkdiyi foto ki, orada hər kəs yalnız özüdür. Onlara özlərindən daha gözəl görünən, kiloların ört-basdır edən, burunlarını incəldən, sızanaqlı üzlərini qüsursuz edən effektli fotolar lazımdır...

## Bəs özümüzü nə vaxtadək aldadacağıq?..

Görünür, bu proses hələ uzun çəkəcək. İndi ki, gənc qızlar bu fotolara belə meyllidirlər, bir dəfə də olsun biz onların şəkillərini effektsiz görə bilmirik, yəni göstərmirlər belə, bu, nəticəsiz olaraq qalacaqdır. Lakin biz orta nəslin nümayəndələri dayanıb-durmadan bu cür fotoların tam mənasız olduğunu onlara aşılamalıyıq. Yeri gələndə aşılayırıq da. İnanıram ki, hər bir ana qızına bunu tövsiyə edər ki, ay bala, özünü bu qədər aldatma. Axı sərgilədiyin fotodakı sən deyilsən, bir güzgü qarşısına keç, bax, kimi görürsənsə, sən osan.

Maraqlıdır ki, cəmiyyətimizdə hər kəs belə fotoları paylaşdığından qarşı tərəfdə bir-birini məzəmmət edən də yoxdur. Sanki elə belə olmalı imiş kimi...



O da maraqlıdır ki, qızların nişanlısı, sevgilisi, qadınların həyat yoldaşı da bunları məzəmmət etmir? Heç bu qadınlara sual verən yoxdur ki, axı fotodakı sən həyatdakı sən deyilsən, nəyinə lazımdır sən olmayan fotolar? Onları kiminsə görməsi nəyə lazımdır? Axı həyatında olan əsas insanlar-ata-ana, bacı-qardaş, həyat yoldaşı, yaxınlı-uzaqlı qohumlar səni görüblər, necə olduğunu da yaxşı bilirlər. Bəs bu fotolara bu qədər effekt tətbiq etməyə ehtiyac varmı?

Həqiqətən də məntiqlə fikirləşəndə, bəzi insanların psixoloji bir sindromla üz-üzə qaldığından başqa fikir gəlmir ağıla. Bizim psixologiyamız nə üçün bu qədər dəyişib? Onun dəyişməsində kimdir səbəbkar, kimdir günahkar? Biz bir-birimizin gözünün içinə baxabaxa nə üçün aldadırıq? Gənc qız günorta nişanlısı ilə görüşür, bir neçə saat sonra fotolar paylaşır. Heç nişanlısından da utanmır ki, axı bu fotodakı bayaqkı mən deyiləm... Bunun kimi onlarla misal çəkmək olar. Hamısının da sonunda "bu, bir neçə saat öncəki sənsən",- sualı var.

Ər arvadı, qardaş bacını, qohum qohumu fotolardan tanımadığı bir dövrdə yaşayırıq. Bu dövr bizdən ən gözəl mənəvi dəyərləri alır, bunun fərqinə varmalıyıq. Əlimizdən fotoları alır-biz olan fotoları, yaşayan, yaşadılan fotoları. Əlimizə yeni fotolar verir-biz olmayan, yaşamayan, sabaha qalmayan fotoları. Nə qədər ki, gec deyil, gəlin, seçək, bizim üçün hansı sərfəli ola bilər? Ona görə hərəkət edək. Nə özümüzü, nə də qarşımızdakıları aldadaq. Axı aldadaaldada haraya qədər getmək olar? Bir də bizim qızlarımız qoy olduqları kimi fotolardan görünsünlər. Axı onlar milli-mənəvi dəyərləri ilə digər xalqlara örnək olan bizim qızlarımızdır. Onlara nə üçün effektin qızları deyilməlidir ki?..

***Mətanət Məmmədova***

# Azər Yem Sənaye MMC-nin 2023-cü ilin nəticələrinə dair audit olunmuş maliyyə hesabatları

**"AZƏR YEM SƏNAYE" MMC**
**MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ MƏCMU GƏLİR HAQQINDA HESABAT**

| *Azərbaycan manatı ilə* | Qeyd | 2023 | 2022 (audit olunmayıb) |
|---|---|---|---|
| **Xidmət satışından gəlir** | 11 | **7,962,621** | **2,559,209** |
| Satışların maya dəyəri | 12 | (6,753,101) | (2,603,908) |
| **Ümumi mənfəət** | | **1,209,520** | **(44,699)** |
| Sair gəlirlər | 11 | 82,203 | 3,334 |
| Ümumi inzibati xərclər | 13 | (1,071,609) | (88,537) |
| **Vergidən əvvəlki mənfəət** | | **220,114** | **(129,903)** |
| Mənfəət vergisi | | (44,023) | (667) |
| Vergidə nəzərə alınmayan xərclər | | (119,648) | - |
| **Xalis mənfəət** | | **56,443** | **(130,570)** |

26 aprel 2024-cü ildə Rəhbərliyin adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir:

Rəhimov Qoca
Direktor

Əliyev Nazim
Baş Mühasib

**"AZƏR YEM SƏNAYE" MMC**
**KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT**

| *Azərbaycan manatı ilə* | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|
| **31 dekabr 2022-ci il tarixinə qalıq** | **2,291,952** | **-** | **2,291,952** |
| İl üzrə mənfəət | - | 56,443 | 56,443 |
| **31 dekabr 2023-cü il tarixinə qalıq** | **2,291,952** | **56,443** | **2,348,395** |

26 aprel 2024-cü ildə Rəhbərliyin adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir:

Rəhimov Qoca
Direktor

Əliyev Nazim
Baş Mühasib

**"AZƏR YEM SƏNAYE" MMC**
**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**

| *Azərbaycan manatı ilə* | 2023 | 2022 (audit olunmayıb) |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | |
| Xalis mənfəət | 56,443 | (130,570) |
| **Əməliyyat aktiv və passivlərində dəyişiklikdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri** | | |
| **Əməliyyat aktiv və passivlərində dəyişikliklər** | | |
| Debitor borclarda xalis artım/azalma | (990,145) | 818,977 |
| Mal-material ehtiyatlarında xalis artım/azalma | (1,479,977) | 1,492,968 |
| Kreditor borclarda xalis artma/azalma | 2,468,673 | (4,315,540) |
| Digər qisamüddətli aktivlərdə artım/azalma | (23,887) | 2,134,178 |
| Bina Qurğu və Avadanlıqlar üzrə amortizasiya xərcləri | 142,318 | - |
| **Əməliyyat fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | **173,424** | **13** |
| **İnvestisiya fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | |
| Bina Qurğu və Avadanlıqların alınması | (128,407) | - |
| **İnvestisiya fəaliyyətlərinə yönəlmiş pul vəsaitləri** | **(128,407)** | **-** |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis artma/(azalma)** | **45,017** | **13** |
| **İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri** | **16** | **3** |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | **45,033** | **16** |

26 aprel 2024-cü ildə Rəhbərliyin adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir:

Rəhimov Qoca
Direktor

Əliyev Nazim
Baş Mühasib

**"AZƏR YEM SƏNAYE" MMC**
**MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT**

| *Azərbaycan manatı ilə* | Qeyd | 31 Dekabr 2023 | 31 Dekabr 2022 (audit olunmayıb) |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Bina, qurğu və avadanlıqlar | 4 | 1,196,965 | 1,210,516 |
| Qeyri-maddi aktivlər | 4 | 3,230 | 3,589 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **1,200,195** | **1,214,105** |
| **Cari aktivlər** | | | |
| Mal-material ehtiyatlar | 5 | 1,479,977 | - |
| Debitor borcları | 6 | 1,026,462 | 36,317 |
| Pul və pul vəsaitlərinin ekvivalentləri | 7 | 45,033 | 16 |
| Digər aktivlər | 8 | 1,188,154 | 1,164,266 |
| **Cəmi qısamüddətli aktivlər** | | **3,739,626** | **1,200,599** |
| **Cəmi aktivlər** | | **4,939,821** | **2,414,705** |
| **Kapital** | | | |
| Nizamnamə kapitalı | 9 | 2,291,952 | 2,291,952 |
| Bölüşdürülməmiş mənfəət | 9 | 56,443 | - |
| **Cəmi kapital** | | **2,348,395** | **2,291,952** |
| **Öhdəliklər** | | | |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Uzunmüddətli kreditor borcları | 10 | 30,000 | 70,684 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **30,000** | **70,684** |
| **Qısamüddətli öhdəliklər** | | | |
| Qısamüddətli kreditor borcları | 10 | 2,561,426 | 52,069 |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **2,520,742** | **2,520,742** |
| **Cəmi öhdəliklər** | | **2,591,426** | **122,753** |
| **Cəmi öhdəliklər və kapital** | | **4,939,821** | **2,414,705** |

26 aprel 2024-cü ildə Rəhbərliyin adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir:

Rəhimov Qoca
Direktor

Əliyev Nazim
Baş Mühasib

# "Yaşlı insan gəncə nümunə olmalıdır ki, gənc də ona hörmət etsin"

"Nəsillər arasında anlaşılmazlıq həmişə olub. Məsələn, atalarımız bizi bəyənmirdi. Biz də bugün övladlarımızı bəyənmirik. Hesab edirik ki, biz onlar yaşda olanda dağı dağ üstə qoyurduq. Amma övladlarımız bizdən fərasətsizdirlər". Bu sözləri SİA-ya açıqlamasında Jurnalist Araşdırmaları Mərkəzinin sədri, Yenisabah.az saytının baş redaktoru Seymur Verdizadə deyib.

Seymur Verdizadə sözlərinə belə davam edib: "Şübhəsiz ki, gələcəkdə övladlarımız da öz övladlarını bəyənməyəcəklər. Yəni bu bir prosesdir və yüz illərdir belə davam edir, yəqin ki min il də bundan sonra belə olacaq. Ədəbiyyatda bunun ən gözəl nümunəsini Turgenev özünün məşhur "Atalar və oğullar" romanında yaradıb. Azərbaycan ədəbiyyatında da bu cür nümunələr çoxdur.

İctimai nəqliyyatda nəsillər arasında anlaşılmazlığa gəlincə hesab edirəm ki, bu məsələdə daha həssas və tolerant davranmaq lazımdır. Bizdə yaşlı insanlar hesab edirlər ki, gənclər mütləq onlara yer verməlidir. Halbuki



gəncin belə bir öhdəliyi yoxdur. Bu mənəvi və ailədən gələn tərbiyə ilə bağlı olan məsələdir. Şəxsən mən heç kimi məcbur edə bilmərəm ki, avtobus yaxud metroda mənə yer versin. Mənim özüm yaşca məndən böyük olan insanlara, xüsusilə xanımlara yer təklif edirəm. Amma övladım yaşda olan gənclərdən bunu tələb etmirəm. Kimsə mənə bu cür jest edirsə, sağolsun. Amma mənə münasibətdə bu cür davranmadığına görə kimisə qınamaq doğru deyil.

Məncə, Azərbaycan cəmiyyəti gəncləri çox qınayır. Bizim gənclərdən gözləntilərimiz bəzən onların daşıya biləcəyi yükdən ağır olur. Gənclərdən yüksək mədəniyyət, etika, jest gözləyən yaşlılar da özlərini yaşlarına və başlarına uyğun aparmağı bacarmalıdırlar. Yaşlı insan gəncə nümunə olmalıdır ki, gənc də ona hörmət etsin. Bəzən elə yaşlı insanlarla qarşılaşırıq ki, hansısa gənc onlara yer verməməkdə düz



**EKSPERT TƏNQİD ETDİ**

edir. Rəhməti də, lənəti də insan bu dünyada öz əməlləri ilə qazanır. Gənclərin, cəmiyyətin başqalarına münasibəti onların davranışlarına adekvat olur. Yaxşı davransaq, özümüzü yaxşı aparsaq yaxşı münasibət görəcəyik. İnsanlara üstdən aşağı baxsaq, hamını bizim dədəmizə borclu kimi görsək bu zaman ögey və laqeyd münasibətlə qarşılaşacağıq".

***Ayşən Vəli***



# Vardanyanın xarici "yan"ları...



***Qarabağ iqtisadi rayonunda artıq cəhənnəmə vasil olmuş qondarma rejimin sabiq "dövlət naziri", Azərbaycan torpaqlarında milli sərvətlərin qanunsuz istismarı ilə öz varidatını artıran erməni əsilli rusiyalı milyarder, qlobal fırıldaqçı Ruben Vardanyan yenə gündəmə gəlib. Bu dəfə "xeyriyyəçi" dələduzu piar şirkətlər, həmçinin CNN kimi telekanallar "qəhrəman" obrazında təqdim etməyə çalışırlar. Daha doğrusu, onun təbliğat kampaniyasını aparırlar. Təbii ki, Vardanyanın pulu müqabilində..…***

Bəri başdan qeyd edək ki, bir vaxtlar Rusiya vətəndaşlığından imtina edərək "könüllü" surətdə Qarabağ ərazisinə köçmüş Ruben Vardanyana Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214-1 (terrorçuluğu maliyyələşdirmə), 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların yaradılmasında və fəaliyyətində iştirak etmə) və 318.1-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə cinayət işi açılıb. Hazırda barəsində istintaq-əməliyyat tədbirləri davam etdirilir. O, ötən il sentyabrın 27-də Qarabağdan Ermənistan istiqamətində hərəkət edərkən Laçın sərhəd-keçid məntəqəsində saxlanılıb.

Bəli, indi qlobal fırıldaqçının ailəsinə istinadən dövriyyəyə belə bir məlumatlar buraxılıb ki, guya Ruben Vardanyan saxlanıldığı Bakı həbsxanasında aclıq aksiyası keçirir. Hətta məlumatlarda ona digər canilərə, separatçılara yəni, qondarma qurumun "prezidentləri" olmuş Arkadi Qukasyanla, Bako Saakyanla, Araik Arutyunyanla, sabiq "xarici işlər naziri" David Babayanla, eləcə də "parlament sədri" David İşxanyanla, general-Lyova Mnatsakanyanla, David Manukyanla müqayisədə fəqli münasibət göstərildiyi də bildirilir. Halbuki, Azərbaycanın müvafiq orqanları hazırda həbsdə olan separatçılarla beynəlxalq hüquq normaları çərçivəsində rəftar edir, onların təhlükəsizliyi ilə ciddi maraqlanır, ailələri ilə müntəzəm əlaqələrə şərait yaradır. Amma təbii ki, onlar əməllərinə, yəni törətdikləri cinayətlərə görə mühakimə olunurlar. Ermənistan isə hər zaman bizim əsirlərə və ələ keçirdiyi mülki şəxslərə qarşı amansız və qəddar davranıb. Elə Birinci Qarabağ müharibəsində Ermənistanın əsir götürdüyü 4000-dən çox Azərbaycan vətəndaşının taleyindən bu günədək bir xəbər olmaması bunu sübut edir. Amma rəsmi Bakı öhdəliklərinə uyğun olaraq, təcavüzkar ölkədən fərqli olaraq bütün hərbi əsirləri Ermənistana təhvil verib. Hazırda ölkəmizdə bir nəfər də olsun erməni əsiri yoxdur. İstintaq dövründə hüquqlarının müdafiəsi ailəsinin seçdiyi vəkil tərəfindən həyata keçirilən Vardanyana gəldikdə isə o, hərbi əməliyyatlar zamanı əsir düşməyib, antiterror əməliyyatı nəticəsində həbs olunub. Bu mənada o, əsir deyil, terrorçu-separatçıdır. Belələri isə bir qayda olaraq məhkəmə qarşısına çıxarılır. O ki qaldı aclıq aksiyayası ilə bağlı iddialara, əvvəla, fotolardan, digər görüntülərdən belə məlum olur ki, hazırda Ruben Vardanyan top kimidir, səhhətində heç bir problem yoxdur. Bu mənada piar şirkətlərin, həmçinin CNN kimi telekanalların Vardanyanın ailəsinə istinadən uydurduqları sadəcə diqqəti ona yönəltməkdən başqa bir şey deyil.

Şübhəsiz, Nikol Paşinyana rəqib kimi ortaya atılan Ruben Vardanyanın "iztirablar"ının bu şəkildə qabardılması heç də təsadüfi deyil. Göründüyü kimi, məqsəd onu həbsdən çıxarmaqdır. Ruben Vardanyanın "xeyriyyəçilik və humanitar fəaliyyətinə" görə 2024-cü il Nobel Sülh Mükafatına namizədliyinin irəlü sürülməsi də elə bu niyyətə xidmət edir. Amma onların xam xəyallarının ürəklərində qalacağı şəksizdir. Yeri gəlmişkən qeyd edək ki, Vardanyanın Nobel mükafatına namizədliyi barədə ilk məlumatı Rusiyanın RBC agentliyi yayıb. Bu media holdinq isə Avropa İttifaqı və Böyük Britaniyanın da şəxsi sanksiyaları altında olan rusiyalı oliqarx Qriqori Berezkinə məxsusdur. Bu mənada demək olar ki, Ruben Vardanyanın Nobel mükafatına namizəd olması belələrinin xam xəyallarından, fərziyyəsindən başqa bir şey deyil.





Ötən ilin sentyabrında keçirilən lokal antiterror tədbirləri ərəfəsində müharibədən məğlub çıxan Ermənistan və onun sifarişlərini yerinə yetirən Qarabağdakı xunta rejimi bölgədə gərginliyi artırmaqda davam edirdilər. Yaşanmayan "humanitar fəlakəti" əllərində bayraq edən separatçılar güvəndikləri əksər beynəlxalq qurumların, həmçinin böyük dövlətlərin bu məsələdə onların gözləntilərini doğrultmadıqlarını görüb daha da həyasızlaşmışdılar. Halbuki o zaman Azərbaycan Qızıl Aypara Cəmiyyəti Qarabağda yaşayan erməni əsilli əhalinin ehtiyaclarını qarşılamaq üçün Bakıdan 40 ton undan ibarət humanitar yardım yola salmışdı. Amma Ruben Vardanyanın yaratdığı "ictimai" təşkilatın - "Qarabağ təhlükəsizlik və inkişaf cəbhəsi"nin üzvləri humanitar yükün Ağdam-Xankəndi yolu ilə Xankəndiyə daxil olmasına imkan vermirdilər. Hətta Vardanyanın təşkilatının rəhbəri Arşak Abramyan Ermənistan mediasına demişdi ki, erməni silahlı dəstəsi də onlarla birgə bu aksiyada iştirak edir. Vardanyanın mənfur əməlləri bununla bitmirdi. Belə ki, o, qondarma "dqr", Rusiya və Azərbaycan arasında üçtərəfli sazişin imzalanmasını tələb etməklə yanaşı, ölkəmizin ünvanına hədə-qorxu bəyanatları səsləndirirdi. Amma Vardanyanın bu, eləcə də həyata keçirmək istədiyi digər şouları Azərbaycan uğurlu diplomatik gedişləri sayəsində fiaskoya uğratdı. Bütün bunların fonunda bu "xeyriyyəçi" Azərbaycan ərazi¬sində çirkli pulları yumaqla, narko¬tik vasitələrin və silahların qanunsuz dövriyyəsi ilə məşğul olmuşdu. Üstəlik o, sülhməramlıların fəaliyyəti dövründə Azərbaycana məxsus ərazidə mis, molibden və qızıl yataqlarını qanunsuz olaraq ələ keçirmişdi. Buradan da görünür ki, R.Vardanyanın "qəhrəmanlığı" yalnız və yalnız varidatını artırmaqla məhdudlaşmışdı.

Vardanyanın təkcə Azərbaycanda deyil, Ukraynada da separatizmə dəstək verən bir terrorist kimi tanınır. Odur ki, Ukrayna tərəfindən sanksiyaya məruz qalmış Vardanyanın Nobel Sülh Mükafatına namizədliyinin irəli sürülməsi bu ölkədə də ikrah doğurub. Hətta bu günlərdə Ukrayna Ali Radasının 18 deputatı Ruben Vardanyanın Nobel Sülh Mükafatına namizədliyinə etiraz edərək məlumat yayıb. Üstəlik, onu Nobel Komitəsinə də ünvanlayıblar. Bəyanatda deyilir ki, terrorizmi və separatizmi dəstəkləyən, korrupsiya qalmaqallarında iştirak edən belə bir adamın Nobel Sülh Mükafatına namizədliyinin irəli sürülməsini qəbuledilməz və absurd hesab edirik: "Nobel Komitəsini Vardanyanın əlaltılarının müraciətini rədd etməyə çağırırıq, çünki sübut olunmuş cinayətkarın sülh işinə xidmət etməsi mümkün deyil".

Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan QHT-i, Qarabağ və Şərqi Zəngəzur sakinləri də Norveç Nobel Komitəsinə açıq məktub ünvanlayıblar. Həmin məktubda deyilir: "Ruben Vardanyanın həyat və fəaliyyəti Nobel Sülh Mükafatının rəhbər tutduğu ideal və dəyərlərə təhqir səciyyəsi daşıyır, bu adların yanaşı çəkilməsinin özü belə bu ali mükafatın dünyada qəbul edilmiş yüksək nüfuzuna ləkə gətirə, beynəlxalq ictimaiyyəti çaşdıra bilər". Məktubda daha sonra deyilir: "Çirkli pulların yuyulması ilə sərvət toplamış kriminal ünsür, terrorçuluğu maliyyələşdirən sima kimi Ruben Vardanyan barədə ağır ittihamlar var. O, Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində yaradılmış və sonradan özünü buraxmış qondarma separatçı rejimin – hərbi xuntanın bir müddət aparıcı rəhbər şəxslərindən biri olub. Həmin dövrdə onun məhz sülhə əngəl olmaq niyyəti ilə Qarabağa gəlişi və ardıcıl yaydığı təxribat xarakterli açıqlamalar vəziyyəti artan xətt üzrə gərginləşdirib, o, Azərbaycan və Ermənistan arasında normallaşma prosesini pozmağa çalışıb".

Məlumat üçün bildirək ki, Ruben Vardanyanın Rusiyadakı korrupsiya şəbəkəsində rolu və çirkli pulların yuyulması piramidasına rəhbərlik etməsi Mütəşəkkil Cinayətkarlıq və Korrupsiyanın Araşdırılması üzrə Beynəlxalq Jurnalist Layihəsinin (OCCRP) geniş araşdırması ilə bir neçə il öncə üzə çıxmış və dünyanın nüfuzlu dərgilərində bu araşdırma dərc edilmişdi. 2022-ci ildə ABŞ Konqresinin 46 üzvü Ruben Vardanyana qarşı şəxsi sanksiyaların tətbiqinə çağırıb və hələ 2019-cu ildə Avropa Parlamentinin 22 üzvü ona qarşı sanksiyaların tətbiqi təşəbbüsü ilə çıxış edib. Onu da xatırladaq ki, 2019-cu ildə R.Vardanyan 2012-ci ilə qədər rəhbərlik etdiyi "Troyka Dialoq Bank"la əlaqəli ofşor sxemlər vasitə¬silə vergidən yayınma və çirkli pulların yuyulmasında ittiham olunub. OCC¬RP-nin araşdırmasına görə, o və tərəf¬daşları müxtəlif ölkələrdə gizli şirkət¬lərdən və hesablardan istifadə edərək vergi orqanlarından təxminən 8,8 mil¬yard dollar gizlədiblər.

Belə olan təqdirdə görəsən, Qərbin, ABŞ-ın bəzi dairələri (USAİD, ABŞ-ın EDELMAN PR şirkəti və s.) ona niyə dəstək verirlər, niyə onun təbliğatı ilə məşğuldurlar? Axı "dünya şöhrətli" fırıldaqçının, separatçının bu formada müdafiə olunması hansı qanunlarla nizamlanır? Bu təbliğatın önündə gedən ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) direktoru Samanta Pauerin canfəşanlığına nə ad vermək olar? Bu, həmin Samanta Pauerdir ki, o, ermənidən betər ermənilik nümayiş etdirir. Bircə faktı qeyd edək ki, ermənilərin uydurduqları "etnik təmizləmə" xülyasına uyan bu xanım 24 apreli – ermənilərin qondarma "soyqırımı günü"nü özünün doğum günü elan edib. Məlumatlara görə, S.Pauer hazırda Bakıda həbsxanada saxlanılan Ruben Vardanyanla sıx əlaqələrə malik olub. R.Vardanyan iki həmkarı ilə birlikdə 2016-cı ildə "beynəlxalq humanitar mükafat" adlan¬dırılan, "erməni soyqırımı"ndan sağ çıxanların adından verilən "Avrora" adlı mükafat təyin etmişdi. S.Pauer də 2017-ci ildən "Avrora"nın seçim komitə¬sinin üzvü idi. Şübhəsiz, rəsmi Bakı S. Pauerlə isti münasibətləri olan Vardanyanı həbs etməklə, həm də bu beynəlxalq təşkilatın iç üzünü ifşa edib.

***Q.Məhəbbətoğlu***

# Ermənilərlə xaricdəki azərbaycanlı mühacirlər birgə “dostluq” aksiyası keçirdi

***Azərbaycan öz gücünə, qüdrətinə arxalanaraq 30 il erməni işğalı altında olmuş torpaqlarımızı azad etdi. Artıq münaqişə bitib, suverenliyimiz tam şəkildə bərpa edilib. Hazırda sərhədlərin delimitasiya və demorkasiya işləri həyata keçirilir. Daha doğrusu, verilən rəsmi məlumata görə, Azərbaycan-Ermənistan dövlət sərhədinin Qazax rayonu istiqamətində 28 sərhəd dirəyinin basdırılması prosesinin uğurla başa çatdırılmasında ilk işartılar olub.***



Təəssüf ki, belə bir tarixi günlər ərəfəsi “sapı özümüzdən olan baltalar” hər cür çirkin vasitə və üsullarla Azərbaycanın siyasi, diplomatik, hərbi uğurlarına kölgə salmağa çalışırlar. Bu da onu təsdiq edir ki, antimilli ünsürlər müstəqil deyillər, onları doğulub boya-başa çatdıqları dövlətinə düşmən kəsilməyə məcbur edirlər. Çünki təsəvvür edilmir ki, suyunu içib, çörəyini yediyin Vətəninə qarşı necə düşmən kəsilmək olar? Lakin xaricdəki antimilli ünsürlərin Azərbaycan xalqının milli və dövlətçilik maraqlarına qarşı sərgilədikləri qarayaxma kampaniyasını sosial şəbəkələr vasitəsi ilə müşahidə etdikdə, dərin təəssüf hissi keçirir və “onlar azərbaycanlı ola bilməzlər”, - deyə düşünürsən. Ancaq acı reallıq ondan ibarətdir ki, ölkəmizin milli varlığına erməni revanşistləri kimi fəaliyyət yolu tutan Orduxan Temirxan, Arif Yunus, Trol Sadıqlı, Məhəmməd Mirzəli, Arif Məmmədov, Sevinc Osmanıqızı və digərləri Azərbaycanda doğulublar və bu Vətənin havasını udub, çörəyini yeyib, suyunu içiblər. “ Daha firavan həyat yaşamaq” xəyalı ilə xarici ölkələrə üz tutublar. Lakin el məsəlində deyildiyi kimi, “kabab iyinə getmişdilər, gedib gördülər ki, eşşək dağlayırlar”. Geri qayıtmağa abır-həya etdiklərindən, orada qalıb veyillənməyə üstünlük verdilər. Bu boşluqdan istifadə edən Avropadakı anti-Azərbaycan dairələr onları agentləri sırasına qatmağa səy göstərdilər və istəklərinə də nail oldular. Hazırda birmənalı şəkildə demək olar ki, xaricdəki antimilli ünsürlərin hər biri hansısa xarici ölkənin xüsusi xidmət orqanının əməkdaşıdır, bəlkə də müvafiq rütbələri var.

### Azərbaycanlı “mühacir”lər öz ağılları ilə deyil, erməni lobbisinin sifarişləri əsasında fəaliyyətlərini qururlar

Görünən ondan ibarətdir ki, Azərbaycana qarşı aparılan çirkin qarayaxma kampaniyasında erməni lobbisi xaricdəki antimilli ünsürlərdən ibarət olan azərbaycanlı mühacirlərlə birlikdə hərəkət edirlər. Bu yaxınlarda Almaniyanın paytaxtında Azərbaycan dövlətçiliyinə qarşı erməni lobbisinin nümayəndələri ilə azərbaycanlı mühacirlərin birlikdə aksiya keçirmələri qeyd olunanlara misal ola bilər. İndiyədək xaricdəki antimilli ünsürlər adlandırılan şəbəkə ermənilərlə eyni mərkəzdən və eyni mövqedən çıxış etdiklərini ört-basdır etməyə çalışırdılar, amma artıq bunu gizlətmək mümkün deyil.

https://www.tiktok.com/@ifshalar.n1/video/7362462667673472264?_r=1&_t=8ls9uvlKftn

Söz yox ki, Almaniyadakı erməni lobbisinin nümayəndələri ilə bu ölkədəki azərbaycanlı mühacirlərin birgə aksiyası ilk hadisə deyil. Bundan əvvəl də tərəflər birlikdə aksiyalar təşkil edib, açıqlamalar yayıb, addımlar atıblar. Yəni, bir-birinə inam, etimad, dəstək mövcuddur. Əslində, başqa cür də ola bilməz. Çünki eyni mərkəzdən idarə olunur, maliyyə yardımları alır, dəstək görürlər. Hazırkı məqamda əməkdaşlıq əlaqələrini də gizlətmək fikrində olmadıqlarını nümayiş etdirirlər. Misal olaraq, oğurluq üstündə Azərbaycanda bir neçə dəfə həbsdə yatan və sonuncu dəfə amnistiya əsasında azadlığa çıxan və azadlığa çıxınca Almaniyaya gedən Manaf Quliyev adlı trol Sevinc Osmanqızının TV-sinə verdiyi açıqlamasında keçirilən aksiyanın təşkilində və həyata keçirilməsində erməni lobbisinin və nümayəndələrinin dəstəyinin olduğunu bildirib. Hətta utanıb-çəkinmədən dolayısı ilə nümayiş etdirdi ki, avtomobil karvanına qarşı planlaşdırdıqları təxribatın ideya müəllifi erməni lobbisi olub. Erməni lobbisinin yaratdığı “Theophanu Club Germany” səhifəsinin aksiyaya informasiya dəstəyi verməsi də onu deməyə əsas verir ki, azərbaycanlı “mühacir”lər öz ağılları ilə deyil, erməni lobbisinin sifarişləri əsasında fəaliyyətlərini qururlar.

### Sevinc Osmanqızı utanmadan “ha...ha..hi... hi..” edirsə...

Maraqlı məqamlardan biri də ondan ibarətdir ki, xaricdəki bütün trollar Almaniyanın paytaxtında keçirdikləri beş-on nəfərdən ibarət aksiyanın miqyasını böyütməyə çalışırlar. Halbuki aksiya ciddi nəticə vermədi. Yəni, təxribat küçə uşaqlarının xuliqanlığından o yana getmədi. Sadəcə, trolların nəzarətində olan internet TV-lərdə aksiya haqqında və Almaniyanın paytaxtında baş verən dövlət tədbirləri haqqında ağzıgöyçəklik edilir, mənasız və əsassız açıqlamalar verirlər. Hətta bəzi hallarda arsızlıq etməkdən də çəkinmirlər. “Osmanqızı” TV- də çıxışında Manaf adlı trolun “qəhrəman”lığını S.Osmanqızı azərbaycanlı adına ləkə ola biləcək hərəkətlə “ha...ha..., hi...hi...” ilə cavab verdi. Bu isə ona dəlalət edir ki, təxribatın xaricdəki bütün antimilli ünsürlər tərəfindən dəstəklənməsi və yayılması barədə mərkəzi şəbəkə heyəti tərəfindən xüsusi tapşırıqlar verilib. S.Osmanqızının ABŞ-da dincələ-dincələ Almaniyada baş verənlərə reaksiya verməsi, hay-küyçü dəstənin boşboğazlığına özünəməxsuz formada münasibət bildirməsi tapşırığın çox ciddi olduğundan xəbər verir. Almaniya polisinin və ərazinin təhlükəsizliyinə cavabdeh olan güc strukturlarının azərbaycanlı mühacirlər Orxan Ağayevin, Manaf Quliyevin, Şirin Tire Abbasovun, Əfqan Muxtarlının və Qurkgenin, Arkın, Surenin və digər erməni lobbisinin nümayəndələri iştirak etdiyi təxribatlarına seyirçi qalmaları onu təsdiq edir ki, məsələnin arxasında Avropanın qaranlıq dairələrinin də əli var. Bu isə Avropanın özü üçün utancverici haldır. Çünki Azərbaycanın dünyanın güc mərkəzinə çevrilməsindən narahat olan Avropanın qaranlıq dairələri “sapı özmüzdən olan baltalar” vasitəsi ilə ölkəmizə təzyiq edə biləcəklərini düşünürlər. Lakin anlamırlar ki, heç bir qüvvə Azərbaycana qarşı dura bilməz. Azərbaycan dövləti xalqın öz lideri ətrafında sıx birləşməklə istənilən qüvvənin burnunu əzə bilər. Xaricdəki antimilli ünsürlər və onlara himayədarlıq edən erməni lobbisi olsa-olsa ayaqqabının altındakı toz ola bilər. O toz ki, istənilən vaxt zibilliyə atıla və ya havaya sovrula bilər.

**İLHAM ƏLİYEV**

ANALİZ

# “Azərbaycan cəmiyyətində onlarla bağlı mənfi fikirlər var”



***"Obyektiv və subyektiv səbəblərə görə cəzaçəkmə müəssisələrində məhbusluq həyatını yaşayan həm kişilər, həm də qadınlarla bağlı dövlətimiz heç bir məhdudiyyət qoymadan bu və ya digər dərəcədə müxtəlif layihələr, dövlət proqramları işləyir". Bu sözləri SİA-ya açıqlamasında Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, yazıçı-kulturoloq Aydın Xan Əbilov deyib.***



**MÜNASİBƏT**

O bildirib ki, məhbuslar cəzasını çəkib bitirəndən sonra azadlığa çıxanda onlara 1500 manata yaxın ilkin özünə baxmaq və işini qurmaq üçün dövlət tərəfindən maliyyə yardımı da ayrılır: ”Amma bu bir insanın illər boyu azadlıqdan məhrum olaraq heç bir iqtisadi, sosial və mənəvi yardım almadığı, çətinliyə düşən bir insanın müasir dövrün ən çətin həyat tələblərinə cavab verən yaşayış qurmasına elə də kömək göstərə bilməz. Çünki azad iqtisadiyyatda və kapitalizm dövründə yaşayırıq. Kapitalizm sisteminin özünəməxsus qanunauyğunluqları var. İşlədinsə həyatda müəyyən mövqe tuta bilərsən, çalışmadınsa problem yaşaya bilərsən. İnkişaf etmiş cəmiyyətlərdə məhbuslarla bağlı çox maraqlı həm müxtəlif ictimai qurumların, həm də bələdiyyələrin, dövlətin çox aktual və sosial yönümlü layihələri var. Onlar peşə artırma kurslarına cəlb olunurlar, işə düzəlmə agentlikləri onlara təkliflər edir. Təəssüflər olsun ki, Azərbaycanda hələ bu sistem yoxdur. Məhbuslar, daha çox qadınlar azadlığa çıxandan sonra, onsuz da, onlarla bağlı Azərbaycan cəmiyyətində çox mənfi fikirlər olur. İnsan həbsxanaya düşdüsə, sosial adaptasiyası olması üçün Azərbaycanda elə də köməklik olmur. Əksinə azərbaycanlılar belə insanlara inamsızlıq nümayiş etdirirlər. Onların işə götürülməsi ilə əlaqədar müəyyən mənada problemlər ortaya çıxır. Onlar ən ağır işlərdə işləməyə razılıq verirlər. Amma keçmiş məhbusların, xüsusilə də, qadınların işə düzəlməsi ilə bağlı yenə də böyük problemlər var. Elə sahələr var ki, məsələn, qabyuyan, xidmətçi, süpürgəçi kimi zəhmət tələb edən işlərdə böyük məmnuniyyətlə işəgötürənlər keçmiş məhbus qadınları işə götürürlər. Çünki orada həm məvacib azdır, həm gündəlik iş çoxdur, həm də onlardan nəsə tələb etmirlər. Təəsüf ki, Azərbaycanda Sovet dövründən qalma fikir var ki, məhbus xanımlar əgər işə götürülürsə, onlar oğurluq edəcək, təzədən cinayət edəcəklər. Ona görə də onlara heç də həvəslə iş vermirlər”.



”Keçmiş məhbus xanımların azadlığa çıxandan sonra onların yeni sənədlərə yiyələnməsi, cəmiyyətə adaptasiya edilməsi, mental psixoloji uyğunlaşması üçün ən azı 6 ay kurslar təşkil olunmalıdır. Anlamaq lazımdır ki, dörd divar arasında yaşamağa məcbur olmuş bu şəxslər onsuz da Allah və dövlət tərəfindən cəzalandırılıb. Növbəti dəfə cəmiyyət tərəfindən cəzalandırılmasına yol verməmək olmaz. Eyni zamanda həmin adamların ağır fiziki işlə məşğul olması həm sağlamlığında problemlər yaradır, həm də yaşam tərzindəki psixoloji, mənəvi əksikliklər buna imkan vermir.

Onun üçün işə götürənlər, dövlət strukturları, cəmiyyət də onları anlamalıdır. Bu keçmiş məhbus xanımlarla bağlı həm dövlət, həm də ictimai-sosial proqramlar həyata keçirməlidir. Onların adaptasiya olunması, sənətə malik olmaları, ailəsi tərəfindən rədd edilirsə, onların cəmiyyətin digər sosial qurupları ilə birlikdə adaptasiya olunub yeni həyata başlaması üçün addımlar atmalıyıq. Necə ki, biz böyük problemlərlə rastlaşırıq, yenə də həmin problemlərlə rastlaşa bilərik. Təkrar cinayətlər baş verə bilər, məhbuslar yenidən həbsxanaya qayıda bilərlər. Bütün bunları nəzərə alsaq, yaxın vaxtlarda məhbuslarla bağlı yeni proqramın hazırlanması və həyata keçirilməsinin aktuallığını dərk edə bilərik. Tezliklə bu problem həll oluna bilər.

Dünya statistikası da göstərir ki, keçmiş məhbuslar özlərini cəmiyyətdə yad hesab edəndə, onlara iş verilməyəndə, onlar yenidən cinayət hadisəsi törədir və həbsxanaya qayıtmış olurlar” - deyə o, əlavə edib.

**Söylü Ağazadə**



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Erməni analitik: "Ermənistanın sülh müqaviləsi imzalamaqdan başqa yolu qalmayıb"

## "Fransa bazaları regionda yeni risklərlə yeni reallıqlar yaradacaq ki, bu da Ermənistana heç də lazım deyil"

***Tanınmış erməni bloger, fəal və ictimai xadim İşxan Verdyan "Caliber" analitik mərkəzinə müsahibəsində Ermənistanın yürütdüyü siyasət, daşnakların sülh prosesinə mane olması, Paşinyanın mövqeyi haqda maraqlı fikirlər səsləndirib. Müşahibəni oxucularımıza təqdim edirik.***

**-Cənab Verdyan, Ermənistandakı hazırkı etiraz potensialını necə qiymətləndirirsiniz? O, indiki hakimiyyət üçün təhlükə yaradırmı? Sizcə, bunun** arxasında hansı qüvvələr dayanır?

- Hesab edirəm ki, Ermənistandakı hazırkı etiraz hərəkatları bu baxımdan baş nazir Paşinyanın siyasi kursuna təsir etmək potensialına malik deyil, onlar ölkə hakimiyyəti üçün heç bir təhlükə yaratmır. Digər məsələ isə odur ki, əslində dövlət cinayətkarları klanı olan Qarabağ klanının təmsilçiləri və davamçıları olan qondarma etirazçılar Bakı ilə İrəvan arasında sülh müqaviləsi imzalanandan sonra da hər cür təxribatları, terror aktlarını təşkil etməklə nizamlanma prosesini ləngitməyə qadirdirlər.

Banditizm və terror keçmiş prezident Robert Köçəryanın və onun müttəfiqləri olan daşnakların həmişə sevimli aləti olub və əminəm ki, onlar bundan istifadə etməyə çalışacaqlar. Mənim əminliyim ondan irəli gəlir ki, sülh prosesi həmişəki kimi davam edəcək və daşnakların artıq Paşinyana təqdim edəcəkləri heç nə olmayacaq. Yəni, indiki mərhələdə Paşinyanın qarşısını ala bilməsələr, o zaman yaxın gələcəkdə simasını itirəcəklərinə, ideologiyalarının çökəcəyinə, oğurladıqları bütün saysız-hesabsız xəzinələrin dövlət mülkiyyətinə çevriləcəyinə zəmanət verilir.



Beləliklə, bu etirazlar qaçılmaz məhvlə üzləşən bir heyvanın ölüm sancılarıdır.

**- Nikol Paşinyanın İrəvanın qonşularına ərazi iddialarının olmaması ilə bağlı son açıqlamalarını necə qiymətləndirirsiniz? Ermənistan rəhbərliyi gələcəkdə də bu kursu davam etdirəcəkmi?**

- Baş nazir Paşinyanın bu məsələ ilə bağlı son açıqlamalarını öz yurisdiksiyasını aydın şəkildə dərk edən və ona əməl etməyə çalışan ağıllı liderin bəyanatları kimi qiymətləndirirəm. Nikol Paşinyan verdiyi vədlərə əməl edəcək, çünki onun üçün geri dönüş yoxdur. Öz ərazisindən kənarda iddiaların olmaması istənilən ölkə üçün təbii davranışdır və Ermənistan da istisna deyil və bunu etməmək Ermənistanı sadəcə məhv olacağı müharibəyə sürükləmək deməkdir. Baş nazir Paşinyan da bunu yaxşı bilir. Mübarizə aparacaq, məqsədlərinə çatacaq. Təbii ki, ona olmağa çalışacaqlar, amma xeyri yoxdur.

**- Başlanmış delimitasiya və demarkasiya prosesi bunun bariz nümunəsidirmi?**

- Bəli. Başlanmış sərhədlərin delimitasiyası və demarkasiyası prosesi, əslində, artıq Azərbaycanla Ermənistan arasında normal münasibətlərin nümunəsidir. Hər şey dinc şəraitdə, silahlı insidentlər olmadan, iki ölkənin dövlət idarələri arasında dialoq əsasında baş verir. Bu, münasibətlərin normallaşmasının başlanğıcı deyilmi? Bəli, mən şübhə etmirəm ki, bu yolun sonunda biz mütləq sülh müqaviləsinin imzalanması ilə üzləşəcəyik.

**- Proqnozunuz ümidvericidir. Paşinyan Moskvada keçiriləcək 3 mühüm tədbirdə iştirak edəcəkmi?**

- Düzünü desəm, burada Nikol Paşinyanın addımlarını və hərəkətlərini proqnozlaşdırmaq çətindir. Yalnız onu deyə bilərəm ki, o, Moskvada görüşməkdən imtina etsə, bu, onun səhvi olacaq, çünki Rusiya o qədər də kobud şəkildə diqqətdən kənarda qalmalı olan ölkə deyil. İrəvan Moskvaya qarşı iddialar səsləndirib, bu doğrudur, lakin bu iddialar Rusiyanı Ermənistanın düşməninə çevirməyə xidmət etməməlidir. Beləliklə, mənim təvazökar fikrimcə, Paşinyanın Moskvaya səfəri iki ölkə arasında hazırda mövcud olan gərginliyi azaltmağa xidmət edə bilər.

**- Bu ilin sonuna qədər İrəvan Qərbə inteqrasiya istiqamətində konkret addımlar atacaqmı?**

- Mənə elə gəlir ki, Ermənistanın Aİ-dən dərhal çıxmasını və Avropa İttifaqına daxil olmasını tələb edən müxtəlif ekspertlərdən fərqli olaraq, Nikol Paşinyan Ermənistanın coğrafi mövqeyini və onun real imkanlarını düzgün qiymətləndirmək üçün kifayət qədər sağlam düşüncəyə malikdir. Ermənistanın Aİ ölkələri ilə ümumi sərhədi yoxdur ki, bu da onun bu formalaşmada birbaşa iştirakını qeyri-mümkün edir.

Digər tərəfdən, Ermənistanın Aİ-dən çıxması üçün kifayət qədər əsasları yoxdur, xüsusən də Ermənistan iqtisadiyyatının son illərdə görünməmiş artımını təmin edən bu Avrasiya strukturunda iştirak etdiyinə görə. Nikol Paşinyan özü bildirib ki, onun məqsədi regionallaşmadır. "Biz regiona dünya vasitəsilə yox, region vasitəsilə daxil olmalıyıq"- bu onun birbaşa sitatıdır və məncə, bu, kifayət qədər əhatəli səslənir.

KTMT haqqında hələlik heç nə deyə bilmərəm, lakin nəzərə alsaq ki, Ermənistanın bu təşkilatla münaqişəsi birbaşa olaraq Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası ilə bağlıdır, delimitasiyanın uğurla başa çatması ilə münaqişə özünü tükəndirəcək.

**- Yəni, gələcəkdə Fransa hərbi bazalarının Ermənistanda görünməsini ehtimal etmirsiniz?**

- Mən Fransanın Ermənistanda hərbi bazalarının yaranmasına inanmıram. Fransa Ermənistana silah satmaq istəyə bilər və çox güman ki, bunu edəcək, lakin hərbi bazaların olması tamam başqa geosiyasi səviyyədir. Fransa bazaları regionda yeni risklərlə yeni reallıqlar yaradacaq ki, bu da Ermənistana heç də lazım deyil.





***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
30 aprel
2024-cü il


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!




# XƏBƏRDARLIQ: elektron siqaretlər bu dəhşətli xəstəliyi yaradır!

***"Son zamanlar elektron siqaretlərin istifadəsi həddindən çox artıb və insanlarımız ənənəvi siqaretləri elektron siqaretlərlə əvəz edərək orqanizmə daha az zərər vurduqlarını düşünürlər. Amma bu yanlış bir fikirdir". Bu sözləri SİA-ya açıqlamasında həkim terapevt Sübhan Hacıyev deyib.***

Onun sözlərinə görə, bu şəxslər elektron siqaretlərdən istifadə etdikləri zaman da yağışdan çıxıb yağmura düşmüş kimi bir halla üzləşirlər: "Bu onunla əlaqəlidir ki, elektron siqaretlərin özləri də zərərli vərdişlər siyahısındadır və bu siqaretlərin tərkibi nikotin, propilen qlikol, qliserin və bir çox kimyəvi maddələrdən ibarətdir. Bu maddələr çəkildikcə qızınır və isindikcə də konseragen, yəni xərçəng əmələ gətirmə təsirə malikdir".

Sübhan Hacıyev sözlərinə belə davam edib: "Eləcə də bu maddələr qana keçdikdən sonra böyrəküstü vəz funksiyasını artıraraq stress hormonu olan kortizonun ifrazını artırır və nəticədə arterial damarlarda daralmaya gətirib çıxarır. Arterial hipertenziya, piylənmə, şəkərli diabet, allergik xəstəliklər xüsusilə də tənəffüs yollarının allergiya xəstəliklərinə yol açır. Eyni zamanda nikotinin özü də bilavasitə bronxlara mənfi təsir göstərərək orada bir iltihab yaradır və gələcəkdə xroniki abstruktiv ağciyər xəstəliyinin yaranmasında böyük bir rol oynayır. Bu səbəbdən insanlara tövsiyəmiz siqaretdən qurtulmaq üçün digər vasitələrdən istifadə edərək şüurlu, rasional şəkildə nəyin zərər olduğunu anlayıb araşdırıb ondan sonra qərar versinlər. Yaxşı olardı ki nikotinin bütün növlərindən uzaq dursunlar".

Xatırladaq ki, ötən günlərdə elektron siqaretdən istifadənin qadağan olunması Milli Məclisdə təklif olunub.

*Ayşən Vəli*

# Məşhur aktyor cinsi zorakılığa görə polisə çağırıldı

***Fransalı məşhur aktyor Jerar Depardye Parisdə dindirilmək üçün polis bölməsinə çağırılıb. SİA xəbər verir ki, bu barədə məlumatı "BFMTV" telekanalı yayıb. Bildirilir ki, aktyor cinsi zorakılıqla bağlı ittiham olunduğu iş üzrə dindirilir.***



Xatırladaq ki, fevral ayında J.Depardye barəsində cinsi zorakılıqla bağlı yeni şikayət edilib. Bu zaman, soyadı açıqlanmayan Ameli adlı quruluşçu-rəssam "Les volets verts" filminin çəkilişləri zamanı aktyorun onun ünvanına nalayiq ifadələr işlətdiyini, eləcə də bədəninin müxtəlif hissələrinə kobudluqla toxunduğunu iddia edib.

# Bu bürclər üçün "qara" zolaq başlayır: Özünüzü necə qorumalısınız?



Bu həftə üç bürcün nümayəndələri üçün ciddi güc sınağına çevrilə bilər. Onları problemlər gözləyə bilər, amma təhlükədən yayınmağın da yolları var.

Lent.azi xəbər verir ki, qara zolağın başlamasına hazırlaşmalı olan bürcləri təqdim edir.

**Oxatan**

Bazar ertəsi özünüzü yorğun hiss edə bilərsiniz. Nə vaxtsa sizə elə gələcək ki, vaxt dayanıb. Bununla belə, özünüzü rutin və kədər içində boğmağa imkan verməyin.

Özünüzü ələ almağı bacarsanız, qara zolaq başlamayacaq. Melanxolik və tənbəlliyi uzaqlaşdırın, problemlərlə mübarizə aparın və maneələri dəf edin. Və özünüzə fasilə verdiyinizə əmin olun, bunun üçün sərhədlər qoymalı və heç kimin sizi narahat etməsinə icazə verməməlisiniz.

**Əkizlər**

Qəfil dəyişikliklər bu həftə sizi yoldan çıxara bilər. Çox vaxt hər şeyə asanlıqla uyğunlaşırsınız, amma bu dəfə nəsə səhv gedə bilər. Ancaq daxili səsinizə qulaq asın, qara zolağın başlanğıcı ilə barışmağa hazır deyilsiniz.

Daxili müdrikliyinizə etibar edin və nəzarətinizdən kənar olanı dəyişdirməyə çalışmayın. Və situasiyadan əl çəkib axınla getməyə çalışsanız, problemlər sizdən yan keçəcək. Vacib qərarlardan imtina edin.

**Oğlaq**

Aprelin 29-dan etibarən inanılmaz enerji artımı müşahidə edə bilərsiniz. Ancaq bununla yanaşı, həyatınıza çətinliklər də daxil olacaq. Çətin seçim etməli olacaqsınız, şübhələri dəf etməli olacaqsınız.

Kömək və dəstək gözləməyin, bu sizi daha da üzəcək. Gecikmədən və şübhə etmədən hərəkət etməlisiniz. Bütün mənfilik mənbələrini aradan qaldırsanız, qara zolaq tez bitə bilər.

# PSJ 12-ci dəfə Fransa çempionu oldu




***PSJ Fransa Liqa 1-də 2023/2024 mövsümünün qalibi olub. QOL.az xəbər verir ki, bu, "Monako"nun 31-ci turda "Lion"a 2:3 hesabı ilə uduzması ilə dəqiqləşib.***

Beləliklə, PSJ 70 xalla yarışın bitməsinə 3 tur qalmış "Monako" ilə xal fərqini 12-ə çatdırıb və çempionluğu rəsmiləşdirib. Paris təmsilçisi tarixində 12-ci dəfə ölkə çempionu adına yiyələnib.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3200